Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

2-4 NOYABR 2019-cu il

№ 195 (4093)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİSTAN ƏSİR VƏ GİROVLARIN DƏYİŞDİRİLMƏSİNİ TAM DAYANDIRIB - RUSİYADAN BƏDBİN BƏYANAT...

■ səh. 7 ■

Prezident ölkə idarəçiliyində medianın önəminə yenidən qayıtdı

■ səh. 5 ■

Bakıətrafı qəsəbə yollarının təmiri Prezidentin çıxışlarının daimi mövzuları sırasında...

■ səh. 12 ■

Lavrov Ermənistan müdafiə nazirinin "Qarabağ həll olunub" bəyanatını vurdu...

■ səh. 5 ■

Azərbaycan diplomatiyası Ermənistanı rəsmi Moskva qarşısında daha bir diplomatik çətinliyə saldı...

■ səh. 9 ■

Gültəkin Hacıbəyli xalqı "rejimin eksperiment dovşanı" adlandırıb - təhqirə etiraz reaksiyaları...

■ səh. 7 ■

Erməni lobbisindən ABŞ-ın dövlət maraqlarına iki böyük zərbə...

■ səh. 11 ■

Turistlərin bölgələrimizdə kartla alış-veriş etməsində ciddi problem var

■ səh. 13 ■

İncəsənət Universitetinin ixtisaslı aktyor kadrlarının səviyyəsinə ciddi iradlar var...

■ səh. 15 ■




■ səh. 10 ■

## Bakı İrəvanın «Çin ümidlərini» də məhv etdi



Yaşlıların təcrübəsi ilə gənclərin dinamizmi arasında vəhdət - Prezident kadr siyasətində yeni prinsip elan etdi

■ səh. 3 ■



İcra başçılarının Prezidentə yalan hesabatları...

■ səh. 2 ■

Radikalların 2 noyabr aksiyasından imtinasının əsl səbəbi...

■ səh. 6 ■

■ səh. 8 ■

Əli Həsənov radikalların aksiyasının üç mahiyyətini aydın göstərdi - mövcudluq üsulu, şəxsi yaşayış mənbəyi və xaricdəki mərkəzlərlə rabitə vasitəsi...



■ səh. 2 ■

"Prezident yeni icra başçılarını qəbul edərkən onlara fəaliyyət planı verdi"



■ səh. 3 ■

Gənclər evləri və Heydər Əliyev mərkəzlərini bağlı saxlayan başçıların cəzası...



■ səh. 6 ■

Azərbaycan radikalları ABŞ-dan Türk dünyasına qarşı yönəlmiş "genosid qətnaməsini" sükutla qarşıladı



■ səh. 13 ■

Kənd təsərrüfatımızda ən vacib ixtisas kadrlarının çatışmazlıq problemi...



**"Bəzi icra başçıları tərəfindən yalan məlumatlar ötürülür". Bunu Prezident İlham Əliyev Anar Tağıyevi Yevlax Rayon İcra Hakimiyyətinin başçısı, Elnur Rzayevi isə Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul edən zaman deyib.**

*"Belə xoşagəlməz hallar məhz bəzi icra başçılarının qeyri-şəffaf fəaliyyəti və yuxarıya yalan məlumatlar ötürməsi səbəbindən yaranır"*

# İcra başçılarının Prezidentə yalan hesabatları...

## İlqar Hüseynli: *"Bəzən bu ona gətirib çıxarır ki, rayonlarda sosial narazılıqlar ciddi fəsadların baş verməsinə yol açır"*

Ölkə başçısının sözlərinə görə, ictimai nəzarət rayonlarda daha güclü olmalıdır: "Buna nail olmaq üçün müvafiq təkliflər hazırlayın. İctimaiyyəti bizim ümumi işimizə cəlb etməliyik. Həm ictimaiyyət nümayəndələri öz səylərini göstərsinlər, həm də sizin işinizə, dövlət orqanlarının işinə nəzarət etsinlər. Əgər biz buna nail olsaq, onda hər hansı bir xoşagəlməz hadisə baş verərsə, biz dərhal ondan xəbər tutub lazımi tədbirləri görəcəyik".

Prezidentin sözlərinə görə, bir çox hallarda rayonlardan gələn məlumat belədir ki, hər şey əladır: "Hər şey yaxşıdır, biz burada bütün işləri ən yüksək səviyyədə qururuq. Amma dərindən baxanda görürsən belə deyil, bəzi icra başçıları tərəfindən yalan məlumatlar ötürülür. Özlərini göstərmək, yaxud da ki, nöqsanlarını ört-basdır etmək üçün yalan raportlar verilir, rayonların inkişafı ilə bağlı, mövcud problemlərlə bağlı həqiqəti əks etdirməyən məlumatlar verilir. Ona görə mən də rayonlara tez-tez gedirəm ki, o problemləri xalqın dilindən eşidim. Biz bu problemləri həll etməliyik. Əgər kimsə problemləri malalamaq istəyirsə, səhv yoldadır. Sizə də tapşırıram, hər bir ölkədə problem var, biz o problemləri ört-basdır etməməliyik. Əksinə, üzə çıxarmalıyıq".

Həqiqətən də zaman-zaman bəzi icra başçıları rayonlarda mövcud olan nöqsanları gizlədərək mərkəzə yalan məlumatlar ötürürlər. Bunun nəticəsində yaranan problemlər öz həllini tapmır. Ümumilkdə, bəzi icra başçılarının yalan məlumatlar verməsi hansı mənfi nəticələrə səbəb olur?

Məsələyə münasibət bildirən ekspert İlqar Hüseynlinin sözlərinə görə, icra başçıları tərəfindən yalan məlumatların ötürülməsi rayonlarda bir sıra mənfi fəsadlara yol açır: "Belə məlumatlar dövlət strukturlarında arxayınçılığa səbəb olur. Məsələ ondadır ki, bu zaman illərlə yığılıb qalan problemlər bir az da artır. Bəzən bu ona gətirib çıxarır



ki, rayonlarda sosial narazılıqlar ciddi fəsadların baş verməsinə yol açır. Belə xoşagəlməz hallar məhz bəzi icra başçılarının qeyri-şəffaf fəaliyyəti və yuxarıya yalan məlumatlar ötürməsi səbəbindən yaranır. Bu da, nəticə etibarilə, rayonlarda yaşayan insanların sosial qayğılarının, problemlərinin durmadan artmasına səbəb olur. Eyni zamanda, bütün bunlar rayonlarda korrupsiya faktlarının genişlənməsinə gətirib çıxarır. Belə halların qarşısını almaq üçün təkcə icra başçılarının öz insafına ümid etmək olmaz.

Ona görə də rayonlarda ictimai nəzarət hərtərəfli təmin edilməlidir. Elə bir sistem yaradılmalıdır ki, şəffaflığı və ictimai nəzarəti təmin etmək mümkün olsun. Ən başlıcası, şəffaflıq təmin edilməlidir. Çünki hesabatlılıq, şəffaflıq cəmiyyətin bir nömrəli güzgüsüdür. Ona görə də ölkə başçısına dəqiq və şəffaf şəkildə bütün informasiyalar doğru çatdırılmalıdır. O cümlədən, digər əlaqədar strukturlara. Belə olarsa, o zaman yaranan nöqsanları tez aradan qaldırmaq mümkün olacaq".

***Vidadi ORDAHALLI***



## Samir Nuriyev Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri təyin edildi

*"Bu etimadı doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəm"*

**Prezident İlham Əliyev Samir Nuriyevin Azərbaycan Prezidentinin Administrasiyasının rəhbəri təyin edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Samir Rafiq oğlu Nuriyev Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri təyin edilir.

Bundan əvvəlki sərəncamla S.Nuriyev Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsindən azad edilib.

"Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev məni Prezident Administrasiyasının rəhbəri vəzifəsinə təyin etmişdir. Bu təyinat mənim üçün çox böyük şərəf və məsuliyyətdir". "Trend"in məlumatına görə, bunu Prezident İlham Əliyevin bu gün imzaladığı sərəncamla Prezident Administrasiyasının rəhbəri vəzifəsinə təyin edilən Samir Nuriyev "Facebook" sosial şəbəkəsindəki səhifəsində yazıb.

S.Nuriyev ona göstərilən bu yüksək etimada görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirib: "Bu etimadı doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəm".

# Aydın Quliyev: "Prezident yeni icra başçılarını qəbul edərkən onlara fəaliyyət planı verdi"

**"Prezident İlham Əliyevin ötən gün Yevlax şəhərinə və Xaçmaz rayonuna yeni təyin olunmuş icra hakimiyyəti başçıları ilə söhbətinin ictimailəşdirilməsi maraqlı yenilik kimi diqqəti cəlb edir.**

Təyinat almış nazirlərlə eyni formatda söhbətlərin ardınca icra başçıları ilə də oxşar formatda davranış Ölkə başçısının bütün kadr dəyişikliklərinə tələbkar və prinsipial yanaşdığının ifadəsidir". Bu fikirləri SİA-ya açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.

O bildirib ki, Azərbaycan Prezidenti ötən gün təyin olunan yeni icra başçılarını qəbul edərkən, sözün əsl mənasında, onlara fəaliyyət planı verdi: "Bu onların fəaliyyəti üçün həm asanlaşdırıcı, həm də çətinləşdirici faktordur.



Dövlət başçısı hər bir rayonun sosial-iqtisadi coğrafiyasını yeni başçılara təqdim etməklə əslində onlara yol xəritəsi göstərdi".

Ekspert deyib ki, Prezidentin sözügedən rayonlardakı yerli vəziyyətə yaxşı bələd olması yeni başçıları maksimum məsuliyyətə səsləyən güclü faktordu: "Bu iki icra başçısı Prezidentin yeni formatla təyin və cəmiyyətə təqdim etdiyi ilk icra başçılarıdır.Yeni başçılar vəzifələrinin konkret nələrdən ibarət olduğu barədə aydın mesajlar aldılar. Ölkə başçısı onkara rüşvət və korrupsiya ilə mübarizə aparmağı, xalq içində olmağı, Prezidentə yalan məlumatlar verməməyi, media üçün açıq işləməyi, kadr məsələlərində nəsillərin həmrəylik prinsipinə maksimum sadiq olmağı, habelə mədəni ,tələbkar və işgüzar olmağı tövsiyə və tələb etdi, tapşırıq və tövsiyələrini on milyon xalqın gözü qarşısında etdi".

A.Quliyev qeyd edib ki, yeni icra başçılarının necə işlədiklərini, Prezidentin tövsiyə və tələblərinə necə əməl etdiklərini bütün xalq izləyəcək: "Bu mənada, təyin olunmuş başçıların çox ciddi sınaq qarşısında olduqlarını qeyd etmək lazımdır. Bu başçılar Prezidentin və xalqın qarşısında ikiqat məsuliyyət daşıyırlar. Yüksək etimad və ictimai təqdimatın yeni kadrlar üçün həm də yüksək təşəbbüskarlıq motivi olacağını düşünürəm".

# Yaşlıların təcrübəsi ilə gənclərin dinamizmi arasında vəhdət - Prezident kadr siyasətində yeni prinsip elan etdi

**Prezident İlham Əliyev Yevlax və Xaçmaza təyin olunan icra başçıları ilə görüşdə son günlər məmurların yaşı ilə bağlı aparılan müzakirələrə də münasibət bildirib. Ölkə başçısı qeyd edib ki, bəziləri bunu yaşlı insanlara qarşı kampaniyaya çevirir:**



***Məhərrəm Zülfüqarlı:*** *"Kadr bankının yenilənməsi heç də o demək deyil ki, bütün köhnə, təcrübəli kadrlardan imtina olunmalıdır"*

"Siz gəncsiniz, birinizin 37, digərinizin 38 yaşı var. İndi Azərbaycanda gəncləşmə siyasəti aparılır. Bu, təbiidir, nəsillər dəyişir, yeni təfəkkürlü insanlar irəli çəkilir. Bu, təbii prosesdir və biz bu prosesdən kənarda qala bilmərik. Ancaq onu da bildirməliyəm ki, bu, kampaniya xarakteri almamalıdır. Çünki mənə məlumat gəlir ki, bəziləri bunu kampaniyaya çevirmək istəyirlər və sınanmış, təcrübəli, bir qədər yaşlı insanlara qarşı bu kampaniyanı təşkil etmək istəyirlər. Mən buna yol verməyəcəyəm. Mən bilirəm kim nəyə qadirdir, kimin hansı xidmətləri olub, əvvəlki dövrdə və bu gün. Ona görə Azərbaycanda təcrübə ilə gənclərin dinamizmi arasında vəhdət yaradılmalıdır. Bunun sintezi sayəsində biz gözəl nəticələrə çata bilərik. Bir də ki, yaşlı nəsil öz təcrübəsini bölüşməlidir.

Ona görə hər kəs bilsin ki, mən bu kampaniyaya yol verə bilmərəm. Müəyyən dərəcədə xidmət göstərmiş insanlar, əlbəttə ki, dövlət tərəfindən də qiymətləndirilir və biz kampaniyaya yol verməyəcəyik. Eyni zamanda, təbii ki, gəncləşmə prosesi getməlidir və burada söhbət təkcə yaşda deyil, təfəkkürdədir, işə yanaşmadadır. Siz indi mənim təyin etdiyim kadrlar kimi, elə işləməlisiniz ki, həm Yevlax camaatı, həm Xaçmaz camaatı minnətdarlıq bildirsin. Əgər siz bu etimadı doğrultmasanız mən sizi işdən çıxaracağam və cəzalandıracağam".

Göründüyü kimi, Prezident dövlət idarəçiliyində nəsillər arasında körpü salan unikal bir əməkdaşlıq modeli təklif edib. Burada yaşlıların təcrübəsi ilə gənclərin dinamizmi arasında bir vəhdət olması nəzərdə tutulur. Ölkə başçısının təklif etdiyi bu model Azərbaycan üçün nələr vəd edə bilər?

Tarix üzrə fəlsəfə doktoru, professor Məhərrəm

*"Onları mütləq hakimdən xalqın xidmətçisinə çevirməyə ehtiyac var"*

Zülfüqarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, cavan nəslin irəli çəkilməsi çox yaxşıdır: "Ancaq bu heç də o demək deyil ki, biz yaşlı nəsildən tam imtina etməliyik. Dövlət idarəetməsində kadrlara iş bacarığına görə qiymət verilməlidir. Prezidentin son təyin etdiyi icra başçıları cavan olsalar da, onları yalnız yaşlarına görə irəli çəkməyiblər. Görünür, onların yaxşı iş təcrübəsi olub ki, diqqəti cəlb ediblər. Prezidentin təqdim etdiyi model nəyi deyir? Yaşın azdırsa, o demək deyil ki, mütləq ali vəzifədə olmalısan. Başqa bir tərəfdən, yaşın çoxdursa, o demək deyil ki, artıq lazım deyilsən. Bu yanaşma doğru deyil. Ölkə başçısının gənclərə göstərdiyi etimad onu deyir ki, daha dinamik fəaliyyət gözlənir. İcra başçıları regionları iş yerləri ilə təmin etməlidirlər. Regionlara xarici investisiya cəlb etməlidirlər ki, yerli əhali orada işlə təmin olunsun. Bu tapşırığı Prezident xeyli əvvəl onların qarşısına qoyub. Ancaq ortada nəticə yoxdur. Gənc kadrlar bu istiqamətdə çalışmalıdırlar. Bunlar da, köhnələr kimi, yalnız kabinetdə oturacaqlarsa, onda nəticə olmayacaq. Hesab edirəm ki, islahatlar davamlı olacaq. Kadr bankının yenilənməsi heç də o demək deyil ki, bütün köhnə, təcrübəli kadrlardan imtina olunmalıdır. Onların da məsləhət və təcrübəsindən mütləq istifadə olunmalıdır. Xüsusilə də icra başçıları dəyişməlidir. Onları mütləq hakimdən xalqın xidmətçisinə çevirməyə ehtiyac var. Yaşlı nəslin içərisində olan təmiz kadrları vəzifədə saxlamaq lazımdır".

***Məhəmmədəli QƏRİBLİ***

# Gənclər evləri və Heydər Əliyev mərkəzlərini bağlı saxlayan başçıların cəzası...

**Prezident İlham Əliyev Anar Tağıyevi Yevlax Rayon İcra Hakimiyyətinin başçısı, Elnur Rzayevi isə Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul edən zaman rayonlardakı Gənclər mərkəzləri və Heydər Əliyev mərkəzlərindəki vəziyyətin qənaətbəxş olmadığını dilə gətirib:**



***Qabil Hüseynli:*** *"Həmin icra başçılarının cəzası yalnız tənbeh yox, həm də cinayət məsuliyyəti olmalıdır"*

"Rayonların abadlıqquruculuq işlərinə diqqət yetirilməlidir, mövcud obyektlərin işlək vəziyyətdə olması da çox önəmlidir. Mənə verilən məlumatlara görə, bir neçə rayonda mənim iştirakımla açılmış Gənclər Mərkəzi indi bağlıdır, qapıya qıfıl vurulub və sadəcə olaraq, görüntü naminə fəaliyyət göstərir. Bu, dözülməzdir, buna vəsait xərclənib. Gənclər mərkəzlərində gənclər öz asudə vaxtlarını keçirməlidirlər, orada maraqlı tədbirlər, intellektual oyunlar, vətənpərvərliklə bağlı tədbirlər təşkil olunmalıdır. Bu mərkəzlər tikilir, bir çox hallarda istifadə olunmur. Heydər Əliyev mərkəzləri, demək olar ki, hər bir rayon mərkəzində vardır. Nədir bu mərkəzlərin məqsədi? Odur ki, o mərkəzlərə vətəndaşlar gəlib öz asudə vaxtlarını keçirsinlər, o mərkəzlərdə dərnəklər fəaliyyət göstərməlidir, o mərkəzlərdə sərgilər keçirilməlidir. O mərkəzlər rayonun mədəni həyatının ayrılmaz hissəsi olmalıdır. Ancaq mənə verilən məlumata görə, bəzi hallarda açılışdan sonra yenə də qapıları qıfıllanır və faktiki olaraq bu mərkəzlər işləmir. Siz bu məsələ ilə çox ciddi məşğul olun. Yəni rayonlarda həyat daha da dinamik xarakter almalıdır. Əlbəttə ki, rayonlarla böyük şəhərlər arasında fərq var, hər bir ölkədə. Ancaq biz bu fərqi azaltmalıyıq. Rayon yerində elə şərait yaradılmalıdır ki, oradakı vətəndaşlar elə orada yaşasınlar. İş yerləri olmalıdır. İndi dövlət xətti ilə bu proqram icra olunur, o cümlədən, ödənişli ictimai işlər yaradılıb".

Göründüyü kimi, ölkə başçısı konkret fakta toxunaraq rayonlarda deyilən istiqamətdə vəziyyətin qənaətbəxş olmadığını dilə gətirib. Belə ciddi nöqsanların aşkar edildiyi rayonların icra başçıları ilə bağlı nə kimi ölçülər götürülməlidir?

Sabiq dövlət müşaviri Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə hallar hər zaman olub: "Məsələn, Rusiyanın tarixində belə halların olması ilə bağlı kifayət qədər hadisə baş verib. Söhbət yerlərdəki məmurların ölkə başçısına yalan danışmasından gedir. Gördünüz ki, Prezident açıq şəkildə bunu etiraf etdi. Dedi ki, saxta raportlar verirlər, guya vəziyyət əladır. Bunu icra başçısı tək edə bilməz. Çünki Prezidentə raportu təqdim etmək kimi imkanı nadir hallarda ola bilər. Deməli, artıq ölkə rəhbərliyini aldatmaq, yalan məlumatlar verməklə bağlı bir şəbəkə yaradılıb. Belə hal acınacaqlıdır. Dövlət idarəçiliyinə mənfi təsir göstərir. Görürsünüz ki, Prezident artıq real vəziyyəti özü aşkar edir. Hansı üsullarla? Yerində hadisə ilə tanış olub, əhalini dinləməklə, alternativ informasiya vasitəsi olan media ilə. Bu baxımdan da hakimiyyətin bütün qollarının bir-birinə nəzarət formasında işləməsini təmin etməliyik. Gənclər mərkəzlərində olan vəziyyət acınacaqlıdır. Olimpiya komplekslərində də eyni vəziyyətdir. Rayonlarda tikilən Olimpiya komplekslərində məşq etmək üçün elə qiymətlər qoyurlar ki, orada məşqə gedən olmur. Məgər həmin binalar tamaşa olunmaq üçün ərsəyə gətirilib? Bunun məsuliyyətini yalnız icra başçıları daşımır. Həmin binaların balansında olduğu nazirlik və ya hansısa dövlət qurumu da buna nəzarət etməlidir. Ancaq icra hakimiyyətləri real vəziyyəti doğru olaraq rəhbərliyə çatdırmalıdırlar. Biz regionlarda gənclərimizin inkişafına nail olmasaq, onlar zərərli ideologiyaların təsirinə düşəcəklər. Yaxşı olardı ki, rəhbər işçilərin bu cür səhlənkarlığı ilə bağlı Cinayət Məcəlləsinə bir maddə əlavə olunsun, özü də sərt sanksiyalar nəzərdə tutsun. Belə halları bağışlamaq olmaz. Həmin icra başçılarının cəzası yalnız tənbeh yox, həm də cinayət məsuliyyəti olmalıdır".

***Məhəmmədəli QƏRİBLİ***

**"Yeni Müsavat" qəzetinin 30 illik yubileyi Azərbaycan Mətbuat Şurasında qeyd edilib. Bu münasibətlə noyabrın 1-də Şuranın İdarə Heyəti üzvlərinin toplantısı keçirilib. Tədbiri giriş sözü ilə açan MŞ sədri, Milli Məclisin deputatı Əflatun Amaşov bildirib ki, müasir dövr jurnalistikamızın ən populyar media orqanlarından olan "Yeni Müsavat" qəzetinin fəaliyyətdə olduğu ötən 30 il həm ümumən ölkəmizin, həm də mediamızın tarixi baxımından son dərəcə mühüm mərhələdir.**

# Mətbuat Şurasında "Yeni Müsavat" qəzetinin 30 illik yubileyi qeyd edildi












"Bu mərhələyə nəzər salarkən görürük ki, yubilyar nəşrin müstəqillik, istiqlal baxışlarının carçısı olan ideoloji mərkəzdən peşəkar jurnalistika məktəbi statusunadək olan inkişafından danışmaq üçün kifayət qədər dolğun əsaslar var. "Yeni Müsavat" özlüyündə bir tarixdir. Bu tarixin yaradılması üçün əməksevərliyin, prinsipiallığın, qətiyyətin peşəkarlıqla çulğalaşması tələb olunurdu ki, bu missiyanı da Rauf Arifoğlu başda olmaqla nəşrin kollektivi üzərinə götürməyi bacardı. Nəticə etibarilə "Yeni Müsavat" milli ruhlu nəşr statusu qazandı. Belə bir zirvənin fəthi 30 ilin ən böyük mükafatıdır", - deyən Ə.Amaşov rəhbərlik etdiyi qurumun diplomunu "Yeni Müsavat" qəzetinin baş redaktoru R.Arifoğluna təqdim edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru, MŞ İdarə Heyətinin üzvü Vüqar Səfərli "Yeni Müsavat" qəzetinin fəaliyyətə başladığı dövrün çətinliklərindən söz açıb. Belə bir şəraitdə mətbu orqan təsis etməyin fədakarlıq olduğunu vurğulayıb. O bildirib ki, zaman keçdikcə, yubilyar nəşr daha da inkişaf edib. Bu günün "Yeni Müsavat"ı istər yayımı, istərsə də tirajı baxımından ön sırada dayanan kütləvi informasiya vasitəsidir. MŞ İdarə Heyətinin üzvü, "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev "Yeni Müsavat" qəzetinin böyük yol keçdiyini vurğulayıb. Baş redaktor bildirib ki, həmin yolun uğurunu şərtləndirən cəhət nəşrin həm siyasi, həm də sırf yaradıcılıq baxımından özünü təsdiqləyə bilməsidir. Buna görə də günümüzün "Yeni Müsavat" qəzeti həm də peşəkar jurnalistika məktəbidir. MŞ İdarə Heyətinin üzvü, "APA Group"un rəhbəri Vüsalə Mahirqızı da çıxışında "Yeni Müsavat" qəzetini məktəb kimi səciyyələndirib. O, fikrini əsaslandırarkən bildirib ki, Qafqazın ən böyük media resursu statusuna layiq fəaliyyət göstərən yubilyar KİV-in yetirmələri hazırda digər media orqanlarında uğurla çalışmaqdadırlar. V.Mahirqızı, həmçinin, bildirib ki, "Yeni Müsavat" qəzetinin hazırkı yüksək mövqeyi Rauf Arifoğlunun xidmətidir. Baş redaktorun yaratdığı işgüzar mühit nümunədir. Həmçinin, onun müstəsna əməyinin nəticəsidir ki, ənənəvi mediadan onlayn mediaya uğurlu transformasiyanın modelinə çevrilmiş qəzet Azərbaycanın media brendi statusundadır.

MŞ İdarə Heyətinin üzvü, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə 1989-cu ildə müstəqil qəzet yaratmağın məziyyətlərindən söz açıb. O bildirib ki, çətinliklərə qatlaşmaq əzmi "Yeni Müsavat"ı Azərbaycanın ictimai rəyində oturuşmuş media orqanına çevirib. Nəşrin qazandığı mövqeni qoruyacağına əminliyini ifadə edən V.Rəhimzadə bunun üçün qəzetin yaradıcı potensialının və zəngin təcrübəsinin olduğunu vurğulayıb.

MŞ İdarə Heyətinin üzvü, "Teleqraf Holdinq"in rəhbəri Aynur Camalqızı qeyd edib ki, ötən 30 illik müddət "Yeni Müsavat"a Azərbaycan dövləti var olduqca, varolma təminatını qazandırıb. Bu, nəşrin son dərəcə böyük uğurudur və onun əldə edilməsi baş redaktor kimi R.Arifoğlunun müstəsna əməyinin, dözümünün həm nəticəsi, həm bəhrəsi, həm də mükafatıdır. "Yeni Müsavat" qəzetini Azərbaycan mediasının simvolu və rəmzi kimi dəyərləndirən MŞ İdarə Heyətinin üzvü, "Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli bildirib ki, yubilyar nəşr ən çətin dövrlərdə etibarlı tribuna rolunu oynamağı bacarıb. E.Mirzəbəyli, eyni zamanda, əminliyini vurğulayıb ki, "Yeni Müsavat"ın müasir müstəqillik dövrü tariximizdə daşıdığı missiya zamanla ciddi tədqiqatlar mövzusu olacaq.

MŞ İdarə Heyətinin üzvü, Azərbaycanlıların və Digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzinin sədri İlham İsmayıl "Yeni Müsavat" qəzetinin keçdiyi yolun örnək mahiyyət daşıdığını bildirib. O qeyd edib ki, nəşrin bugünkü simasını və statusunu baş redaktor R.Arifoğlunun özünün peşəkar jurnalist kimi mahiyyəti, məxsusi yanaşma tərzi şərtləndirir.

MŞ İdarə Heyətinin üzvü Azər Həsrət deyib ki, "Yeni Müsavat" qəzeti müstəqillik dövrü Azərbaycan tarixinin mühüm salnaməçisi kimi diqqətçəkən mətbuat orqanıdır. Bu cəhət xalqa xidmətin ən mühüm göstəricisidir. Yubilyar nəşrin ötən 30 illik fəaliyyət dövrü xalqa xidmətin ən müxtəlif təzahür formaları ilə zəngindir. Qəzetin hadisə və proseslərə münasibətindəki obyektivlik isə onun ictimai rəydəki başlıca populyarlıq təminatçısıdır.

MŞ İdarə Heyətinin üzvü, Demokratik Jurnalistlər Liqasının sədri Yadigar Məmmədli çıxışında "Yeni Müsavat"ın fəaliyyətə başladığı dövrə ekskurs edib. Bu baxımdan yaddaqalan məqamları diqqətə çatdıran Y.Məmmədli nəşrin dayanıqlı inkişaf yolunda olduğunu bildirib və əlavə edib ki, bu inkişaf, bütövlükdə, Azərbaycan mediasının inkişafı ruhundan, mahiyyətindən irəli gələn mühüm göstəricidir.

MŞ sədrinin müavini, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli yubilyar nəşrin hər zaman milli xəttə sadiqliyini vurğulayıb. Bu mövqeni peşəkarlıq meyarı kimi dəyərləndirən M.Ələsgərli nəşrin əldə etdiyi uğurların məğzində R.Arifoğlu obrazının dayandığını önə çəkib.

MŞ İdarə Heyətinin üzvü, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı bildirib ki, "Yeni Müsavat" qəzetinin 30 illik fəaliyyət dövrü böyük iradə və gücün təntənəsi kimi meydana çıxan prosesdir. O, yubilyar nəşri Azərbaycan tarixi baxımından mühüm mənbə kimi qiymətləndirib. A.Aşırlı, həmçinin, vurğulayıb ki, "Yeni Müsavat" Azərbaycanda ciddi jurnalist nəslinin formalaşmasında müstəsna xidmətləri olan mətbuat orqanıdır. Ən əsası isə qəzet milli ruhludur. MŞ İdarə Heyətinin üzvü, "Azadinform" İnformasiya Agentliyinin direktoru Niyaz Niftiyev "Yeni Müsavat"ı ölkəmizin informasiya təminatındakı mühüm etibarlı mərkəz kimi xarakterizə edən cəhətlərə toxunub. Nəşrin gələcəkdə daha böyük uğurlar əldə edəcəyinə əminliyini ifadə edib.

"Xalq qəzeti"nin baş redaktor müavini Tahir Aydınoğlu bildirib ki, "Yeni Müsavat" ümumxalq qəzeti kimi yaranmış media orqanıdır. T.Aydınoğlu nəşrin sonrakı illərdəki fəaliyyətinin, tutduğu mövqeyindən, hadisə və proseslərə yanaşmasından asılı olmayaraq, bu xəttə sadiqlik ruhuna kökləndiyini önə çəkib.

MŞ-nin icraçı katibi Şəmsəddin Əliyev çıxışında "Yeni Müsavat"ı milli ideya və ideallara sadiq peşəkar insanların eyni zamanda jurnalistikaya sevgi, bütövlükdə, söz sənətinə böyük ehtiramla çalışdıqları mərkəz olaraq dəyərləndirib. Sonda çıxış edən "Yeni Müsavat" qəzetinin baş redaktoru R.Arifoğlu rəhbərlik etdiyi KİV-in, eləcə də özünün ötən 30 ildəki jurnalistlik fəaliyyətinin yaddaqalan anlarından söz açıb, xatirələrini bölüşüb. Toplantı iştirakçılarına təşəkkürünü bildirən R.Arifoğlu, eyni zamanda, vurğulayıb ki, ötən 30 ildə baş redaktor kimi göstərdiyi fəaliyyət ona dəyərli həmkarlar qazandırıb və onlar yanaşma tərzlərindən, mövqelərindən asılı olmayaraq, özlərini həmkar kimi təsdiqləməyi bacarıblar. Bu cəhət isə Azərbaycan jurnalistikasının özünəxas keyfiyyət göstəricisidir.

**Prezident İlham Əliyev vəzifəyə yeni təyin olunan gənc icra başçılarını qəbul edərkən yenidən medianın dövlətin idarə edilməsinə verdiyi töhfə və onun önəmindən danışıb. Ölkə başçısı bildirib ki, ictimai nəzarət rayonlarda daha güclü olmalıdır: "Buna nail olmaq üçün müvafiq təkliflər hazırlayın.**

# Prezident ölkə idarəçiliyində medianın önəminə yenidən qayıtdı

***Yadigar Məmmədli:** "Son çıxışı ilə cənab Prezident sübut etdi ki, o, medianın roluna yenə böyük əhəmiyyət verir"*

***Azər Həsrət:** "Bu hal, eyni zamanda, jurnalistlərin məsuliyyətini artırır"*



İctimaiyyəti bizim ümumi işimizə cəlb etməliyik. Həm ictimaiyyət nümayəndələri öz səylərini göstərsinlər, həm də sizin işinizə, dövlət orqanlarının işinə nəzarət etsinlər. Əgər biz buna nail olsaq, onda hər hansı bir xoşagəlməz hadisə baş verərsə, biz dərhal ondan xəbər tutub lazımi tədbirləri görəcəyik. Bir çox hallarda rayonlardan gələn məlumat belədir ki, hər şey əladır, hər şey yaxşıdır, biz burada bütün işləri ən yüksək səviyyədə qururuq. Amma dərindən baxanda görürsən belə deyil, bəzi icra başçıları tərəfindən yalan məlumatlar ötürülür. Özlərini göstərmək, yaxud da ki, nöqsanlarını ört-basdır etmək üçün yalan raportlar verilir, rayonların inkişafı ilə bağlı, mövcud problemlərlə bağlı həqiqəti əks etdirməyən məlumatlar verilir. Ona görə mən də rayonlara tez-tez gedirəm ki, o problemləri xalqın dilindən eşidim. Biz bu problemləri həll etməliyik. Əgər kimsə problemləri malalamaq istəyirsə, səhv yoldadır. Sizə də tapşırıram, hər bir ölkədə problem var, biz o problemləri ört-basdır etməməliyik. Əksinə, üzə çıxarmalıyıq. O cümlədən, mən media nümayəndələrinə də dəfələrlə müraciət etmişəm, demişəm ki, siz mənim köməkçilərimsiniz. Bəzi hallarda mən dözülməz vəziyyətlə bağlı mediadan xəbər tuturam. Bax, son hadisəni demək istəyirəm ki, Şamaxı rayonunda zəlzələ olub, oraya böyük vəsait ayrılıb. Mən oraya getmişəm, yeni tikilmiş evlərin açarlarını vətəndaşlara təqdim etmişəm. Ancaq o günləri televizorda baxıram ki, məktəb binasının yarısı uçubdur, çatlar var, uşaqlar qorxudan orada otura bilmirlər. Bəs yaxşı, bunun üstündən səkkiz ay keçib, bunu etmək mümkün deyilmi? Vəsait ayrılıb, göstəriş verilib, bir çox evlər tikilib, bu məktəb belə yararsız vəziyyətdə ola-ola bununla necə barışmaq olar? İndi əgər mediada, televizorda bu reportaj getməsəydi, mən bilməyəcəkdim".

Göründüyü kimi, ölkə başçısı növbəti dəfə jurnalistləri öz köməkçiləri adlandırıb və medianın, ictimai nəzarətin mühümlüyünə işarə edib. Ölkə başçısının mediaya verdiyi bu önəmin mahiyyətini necə dəyərləndirmək olar?

Mətbuat Şurası idarə heyətinin üzvü Yadigar Məmmədli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, cənab Prezident mediaya verdiyi böyük önəmlə bağlı ilk dəfə deyil fikir bildirir:

"Prezident hər zaman ictimai nəzarətin gücləndirilməsini tövsiyə edir. Bunu növbəti dəfə vurğulamaqla cənab İlham Əliyev bir sıra məqamlara da aydınlıq gətirmiş oldu. Yadınızdadırsa, bundan əvvəl keçirilən müşavirədə cənab Prezident bəzi məmurların mediaya kobud müdaxiləsinə toxunmuşdu. Təəssüf ki, həmin fikirləri müxtəlif istiqamətə yozub manipulyasiya edənlər də tapıldı. Son çıxışı ilə cənab Prezident sübut etdi ki, o, medianın roluna yenə böyük əhəmiyyət verir. Media da bu önəmə daha məsuliyyətli yanaşma ilə cavab verməlidir. Gözü qıpıq yox, tənqidə üstünlük verməlidir. Ancaq həmin tənqid də qərəzli yox, peşəkarcasına təqdim olunmalıdır".

Əməkdar jurnalist Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, cənab Prezident hər zaman aktivliyi ilə seçilib, ancaq son zamanlar onun super aktivliyi nəzərə çarpır: "Mən bir jurnalist, təhlilçi olaraq onun atdığı pozitiv addımları çatdırıb şərh edə bilmirəm. Təəccüb edirəm ki, biz bunu dəyərləndirməyə vaxt tapa bilmiriksə, Prezident bu həcmdə işlərin öhdəsindən necə gələ bilir? Xüsusən də onun media ilə bağlı fikrini bu şəkildə açıq ifadə etməsi bizi sevindirir. Çünki biz onunla görüşlər zamanı etdiyimiz söhbətlərdə də deyib ki, bir çox məlumatı mediadan alır. Daim bildirib ki, məmurlar ondan nəyisə gizlətməyə çalışırlar. Prezident alternativ informasiya kanalı kimi mətbuatı özünə yaxın və dost sayır. Gənc kadrlarla görüşü zamanı bunu bir daha vurğulaması bizə bir daha əminlik verir ki, Prezident xüsusən də tənqidçi medianın ayaqda durmasında maraqlıdır. Bəzən xaricdən deyirlər ki, hakimiyyət tənqidi medianı boğur. Ancaq biz bunun tam tərsini görürük. Prezidentin gənc icra başçılarını qəbul edərkən səsləndirdiyi fikirlər elə həmin hədyanları yağdıranlara ən gözəl cavabdır. Bu hal, eyni zamanda, jurnalistlərin məsuliyyətini artırır. İstər-istəməz, bundan sonra daha məsuliyyətli davranmalıyıq. Çünki Prezident bizə güvənirsə, ölkədə problemlərin həllində bizə etimad göstərirsə, biz də daha dəqiq olmalıyıq. Nəzərə almalıyıq ki, jurnalistlər bu sürətli islahatlar prosesində daim dövlətin yanında olmalıdırlar".

***Məhəmmədəli QƏRİBLİ***

---

**"Əlbəttə ki, belə bəyanatlar Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə aparılan işlərə kömək etmir". Bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov Ermənistanın müdafiə naziri David Tonoyanın "Dağlıq Qarabağ məsələsi həll olunub" bəyanatına münasibət bildirərkən deyib.**

# Lavrov Ermənistan müdafiə nazirinin "Qarabağ həll olunub" bəyanatını vurdu...

***Fikrət Sadıqov:** "Hesab edirəm ki, bu cür açıqlamalar Ermənistan-Rusiya münasibətlərində mövcud olan problemlərdən qaynaqlanır"*



Lavrovun sözlərinə görə, belə bəyanatlar nizamlanmaya kömək etmir: "Mövqeləri yaxınlaşdırmaq, güzəştə getmək üçün həmsədrlərin davamlı səyləri lazımdır".

Yeri gəlmişkən onu da qeyd edək ki, bundan əvvəl Lavrov Ermənistan Baş naziri Nikol Paşinyanın "Qarabağ Ermənistandır" fikri ilə razılaşmadığını bəyan etdi. Bildirdi ki, belə açıqlamalar münaqişənin həllinə kömək etmir: "Tərəflər olduqca ciddi bəyanatlar verir. O cümlədən, Dağlıq Qarabağın Ermənistanın olması bəyanatı səslənib. Necə ki, Albaniyanın Baş naziri Kosovonun Albaniyanın olduğunu bəyan edib. Əlbəttə ki, bu bəyanatlar münaqişələrin həllinə kömək etmir, siyasi prosesi tormozdan ayırmağa kömək etmir".

Bütün bunlar onu göstərir ki, Rusiya Ermənistanın indiki hakimiyyətinin apardığı siyasəti, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə əlaqədar sərgilədiyi yanaşmanı qəbul etmir. Bir ay ərzində iki bənzər açıqlamanın səslənməsi Ermənistana diplomatik baxımdan zərbədir.

Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqov Lavrovun bu açıqlamasına bir neçə prizmadan yanaşdı: "Rusiya xarici işlər naziri Sergey Lavrovun bir ay ərzində iki bənzər açıqlama səsləndirməsi təsadüfi deyil. Hesab edirəm ki, bu cür açıqlamalar Ermənistan-Rusiya münasibətlərində mövcud olan problemlərdən qaynaqlanır. Məsələ ondadır ki, rəsmi İrəvan Rusiyaya qarşı özünü kifayət qədər sərt aparır. İki dövlət arasında müəyyən problemlərin olması danılmaz həqiqətdir. Həm siyasi, həm də iqtisadi məsələlərlə bağlı tərəflər arasında müəyyən fikir ayrılıqları var. Fikrimcə, bütün bunlar Lavrovun belə açıqlamalarla çıxış etməsində bu və ya digər dərəcədə rol oynayıb. Görünən odur ki, Kreml Paşinyan hakimiyyətinin yeritdiyi siyasi kursdan narazıdır. Bütün bunlara rəğmən, Lavrovun Tonoyanın səsləndirdiyi fikirlərə tənqidi prizmadan yanaşmasına çox da arxayın olmamalıyıq. Nəzərə almaq lazımdır ki, Tonoyanın bəyanatına Lavrovun reaksiyası ümumi ifadələrdən ibarət oldu. Düzdür, o bunu deyərkən Tonoyanın bəyanatını nəzərdə tuturdu. Ancaq o daha sonra ümumi şəkildə dedi ki, belə bəyanatların səslənməsi məqsədəuyğun deyil. Yeni münaqişənin həllinə xidmət etmir. Bax, bu reallığı da biz nəzərə almalıyıq".

*"Lavrovun Tonoyanın səsləndirdiyi fikirlərə tənqidi prizmadan yanaşmasına çox da arxayın olmamalıyıq"*

***Vidadi ORDAHALLI***

# Radikalların 2 noyabr aksiyasından imtinasının əsl səbəbi...

**Milli Şura 2 noyabr mitinqini təxirə salıb. Bu barədə qurumun sədri Cəmil Həsənli öz "Facebook" səhifəsində yazıb: "Dəyərli dostlar! Milli Şuranın rəhbərliyi mənim müraciətimi müzakirə edərək 2 noyabr mitinqinin təxirə salınması barədə qərar qəbul etmişdir. İndiki anda doğru saydığım bu qərara görə MŞ-nın rəhbərliyinə təşəkkür edirəm".**



***Fuad Muradov:** "Demişdim ki, onlar Əli Kərimliyə görə qanunsuzluq edib həbsə getməyə hazırdırlarsa, biz də İlham Əliyev və dövlətimizə görə onların qarşısını alıb həbsə getməyə hazırıq"*

Qeyd edək ki, ilk təklifi hazırda ABŞ-da olan Milli Şura sədri Cəmil Həsənli irəli sürüb. O, mitinq mövzusuna həsr etdiyi və "Facebook"da paylaşdığı yazısında bu təklifin mahiyyətini izah edib. C.Həsənli Respublika Baş Prokurorluğu və DİN-in birgə bəyanatını xatırladaraq yazır: "Respublika Prokurorluğu və DİN bəyanat yayıb Milli Şuranı, xüsusilə də MŞ KM üzvü və AXCP sədri Əli Kərimlini hakimiyyəti zorla ələ keçirməyə hazırlaşmaqda ittiham edib. Mitinqdə təxribat hazırlanacağı haqda məlumatlar hətta gəlib mənə də çatıb".

Milli Şura sədri bütün bunları nəzərə alaraq, mitinqin təxirə salınmasını təklif edib: "Təklif edirəm ki, MŞ KM üzvləri və AXCP rəhbərliyi mənim bu təklifimi təcili müzakirə etsin. 2 noyabr mitinqini təxirə salaq, hərəkatımızın yeni dalğası hələ indi başlayır, əhalinin qorxudulmasına bəhanə verməyək".

Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri Əli Kərimli də mitinqin təxirə salındığını təsdiqləyib.

Qeyd edək ki, Bakı Şəhər İcra Hakimiyyətində (BŞİH) Milli Şuranın mitinqlə bağlı müraciətinə baxılıb və mitinqin noyabrın 2-si, saat 15:00-dan 17:00-dək Lökbatan qəsəbəsi, 28 May küçəsi, "Neftçi idman klubu"nun Qaradağ təlim-idman bazasında keçirilməsinə razılıq verilib.

Lakin AXCP sədri Əli Kərimli aksiyanın razılaşdırılmamış şəkildə Nəsimi rayonu, metronun "28 May" stansiyasının yaxınlığında keçiriləcəyini bildirib. Bundan sonra DİN və Baş Prokurorluq 2 noyabr mitinqinin təşkilatçılarına xəbərdarlıq ediblər. Maraqlıdır ki, radikal müxalifət mitinqin təxirə salınmasının səbəbini hakimiyyət tərəfindən onlara qarşı təxribatların hazırlandığı ilə əsaslanadırmağa çalışır. Hətta bu məsələdə "Milli Fədailər" adlı hərəkatın adını hallandırırlar. Onlar bildirirlər ki, "Milli Fədailər"in rəhbəri Fuad Muradov açıq nömrə ilə Milli Şura rəhbərliyinə zəng edib, mitinqə çıxmamaqla bağlı hədə-qorxu gəlib. Hətta Fuad Muradovun açıq mətnlə Əli Kərimlini öldürə biləcəkləri ilə bağlı Gültəkin Hacıbəyliyə xəbərdarlıq etdiyi də deyilir.

Ancaq hakimiyyətə yaxın olan və bir çox müstəqil ekspertlər qeyd edirlər ki, Milli Şura mitinqi biabır olmamaq səbəbindən təxirə salıb. Çünki onların lazımi elektoratı yoxdur. Bütün bu suallara aydınlıq gətirmək üçün "Milli Fədailər" hərəkatının lideri Fuad Muradovla söhbətləşdik. O, "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, adlarının bu cür məsələdə hallandırılması növbəti şər kampaniyasıdır: "Gültəkin Hacıbəyli bir Azərbaycan qadınıdır, niyə ağ yalan danışır? Bəli, mən Əli Kərimliyə, Cəmil Həsənliyə zəng vurmuşam. Ancaq onlarla danışa bilmədim. Adımı eşidən kimi telefonu bağladılar. Sonra Gültəkin Hacıbəyliyə zəng vurdum. Ona dedim ki, Əli Kərimliyə mənim sözlərimi çatdırsın. Gültəkin Hacıbəyli isə danışığımızı təhrif edən tərzdə ictimailəşdirdi. Mən məcbur qalıb onunla aramızda olan səs yazısını paylaşdım. Bir daha sübut olundu ki, heç kim Əli Kərimlini ölümlə təhdid etməyib. Mən demişdim ki, onlar tərəfdarlarına qanunsuz çağırış edib, xaos yaratmaq istəsələr, qarşılarında bizi, dövləti canından da artıq sevən gəncləri görəcəklər. Demişdim ki, onlar Əli Kərimliyə görə qanunsuzluq edib həbsə getməyə hazırdırlarsa, biz də İlham Əliyev və dövlətimizə görə onların qarşısını alıb həbsə getməyə hazırıq. Bəyəm bu mövqe kimisə ölümlə hədələməkdir? Dövləti sevmək nə vaxtdan cinayət olub? Bəli, onların bütün təbliğat maşını mitinqin təxirə salınması səbəbini bizim adımızla bağlamaq istəyir. Guya hakimiyyət bizim əlimizlə hansısa təxribatı törətmək istəyirmiş. Heç bir təxribatdan söhbət gedə bilməz. Təxribatı onlar hazırlayırdı. Gördülər ki, adamları yoxdur, məcbur qalıb arxaya çəkildilər. Ötən aksiyaya siyasətdən anlayışı olmayan bəzi adamları cəlb edə bilmişdilər. Təsadüfi adamlar da gördülər ki, etdikləri əməl cinayətdir. Ona görə də belə aksiyalara dəstək verməməklə bağlı qərar verdilər. Biz yalnız adekvat cavablar verirdik. Onlar milləti meydana səslədilər, biz də tərəfdarlarımızı meydana səslədik. Niyə bundan qorxurlar ki? Fikir versəniz görərsiniz ki, bütün günü onların tərəfdarları bizi sosial şəbəkələrdə söyür, təhdid edir, hakimiyyətə gələcəkləri ilə hədələyirlər. Mən 2 noyabr aksiyasının təxirə salınmasını radikalların növbəti iflası sayıram. Biz bundan sonra da hər zaman dövlətimizin yanında olacağıq".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan radikalları ABŞ-dan Türk dünyasına qarşı yönəlmiş "genosid qətnaməsini" sükutla qarşıladı

**Məlum olduğu kimi, ABŞ Konqresinin Nümayəndələr Palatası qondarma "erməni soyqırımı"nı rəsmən tanıyan qanun layihəsini təsdiq edib. Azərbaycan dövləti ABŞ Nümayəndələr Palatasının qəbul etdiyi qərarı sərt tənqid edərək bununla bağlı rəsmi bəyanat verib.**



***Azər Həsrət:** "Radikal müxalifətin ABŞ-ın Nümayəndələr Palatasının çıxardığı bədnam qətnaməyə etiraz etməməsi, ümumiyyətlə, bu hadisəyə münasibət bildirməməsi onların ermənilərin və ermənipərəst qüvvələrin mövqeyini bölüşməsinə xidmət edir"*

ABŞ Nümayəndələr Palatasının qəbul etdiyi qərara Azərbaycan dövləti ilə yanaşı, elmi qurumlar, ictimai təşkilatlar kəskin etirazlarını bildiriblər. Lakin hələ də radikal müxalifətin ABŞ Konqresinin atdığı bu addıma hər hansı bir reaksiyası yoxdur. ABŞ Konqresinin bütün Türk dünyasının əleyhinə qəbul etdiyi qərara, çıxardığı qətnaməyə radikal müxalifətin reaksiya verməməsi təəccüb doğurur. Zaman-zaman özünü Türk dünyasının "təəssübkeşi" olaraq qələmə verməyə çalışan radikal müxalifətin Türk dünyasının sınağa çəkildiyi bir dövrdə qaçıb gizlənməsi, ABŞ-a xoş gəlmək üçün susması dolayısı ilə qəbul edilən qərara dəstək verməsi kimi dəyərləndirilməlidir. Çünki bunun başqa bir adı yoxdur. Uzun illərdir heç bir sosial bazası olmayan, tərəfdarlarını itirən radikal müxalifət hakimiyyət sevdasının baş tutmamasında ABŞ-ı da günahkar bilir, amma bunu açıq etiraf etmir.

Tanınmış media eksperti, Əməkdar jurnalist Azər Həsrət isə hesab edir ki, radikal müxalifət ABŞ Nümayəndələr Palatasının çıxardığı qətnaməyə etiraz bildirməməklə, faktiki olaraq, ermənilərin və ermənipərəst qüvvələrin yanında yer aldığını göstərir. "Biz həmişə demişik ki, radikal müxalifət antimilli, antitürk mövqeyindən çıxış edir. Radikal müxalifət həmişə bizi onlara şər atmaqda ittiham edib. Lakin həmişə milli məsələlər, Türk dünyasının taleyi ilə əlaqədar hadisələr müzakirə ediləndə radikal müxalifət susmağa üstünlük verir, yaxud da bu və da digər şəkildə açıqlama verməkdən yayınır. Bu dəfə də eyni cür davrandılar. ABŞ-ın Nümayəndələr Palatası yalnız Türkiyəyə deyil, bütövlükdə, Türk dünyasına qarşı bir sənəd ortaya qoyub. Lakin radikal müxalifət buna öz münasibətini bildirmir.

Bu, hakimiyyət məsələsi deyil, millət, dövlət məsələsidir. Bu adamlar da dövlət və millət məsələsində susqunluğa üstünlük verirlər. Hesab edirəm ki, radikal müxalifətin ABŞ-ın Nümayəndələr Palatasının çıxardığı bədnam qətnaməyə etiraz etməməsi, ümumiyyətlə, bu hadisəyə münasibət bildirməməsi onların ermənilərin və ermənipərəst qüvvələrin mövqeyini bölüşməsinə xidmət edir. Bunun başqa adı yoxdur" - deyə A.Həsrət qeyd etdi.

***İradə SARIYEVA***

# Ermənistan əsir və girovların dəyişdirilməsini tam dayandırıb - Rusiyadan bədbin bəyanat...

**Azərbaycanla Ermənistan arasında saxlanan şəxslərin dəyişdirilməsi ilə bağlı vəziyyət daha az nikbindir. Bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov Moskvada ATƏT-in baş katibi Tomas Qremingerlə birgə keçirdiyi mətbuat konfransı zamanı deyib.**

*"Rəsmi İrəvan bununla bağlı beynəlxalq çağırışlara məhəl qoymur"*

*Əhməd Şahidov: "Ermənistan hakimiyyətinin yeritdiyi destruktiv siyasət üzündən əsir və girovların dəyişdirilməsi baş tutmur"*

Lavrov xatırladıb ki, o, aprel ayında ATƏT-in Minsk Qrupu həmsədrlərinin iştirakı ilə Azərbaycan və Ermənistan XİN rəhbərləri ilə görüşüb: "Çox yaxşı, formal xarakter almamış və açıq müzakirə keçdi və bunun nəticəsində bir sıra humanitar tədbirlərin reallaşdırılması üçün perspektivlər yarandı. O zaman saxlanan şəxslərin dəyişdirilməsi, həlak olan şəxslərin meyitlərinin dəyişdirilməsi və vəziyyəti bir qədər yumşaltmaq, etimad mühitini artırmaq üçün jurnalistlərin qarşılıqlı səfərləri barədə tədbirlər müzakirə olunmuşdu. Jurnalistlərlə bağlı ATƏT Katibliyi vasitəsilə dialoq davam edir, ümid var. Saxlanan şəxslərlə bağlı vəziyyət isə az nikbindir. Biz hesab edirik ki, bu istiqamətdə hərəkət etmək lazımdır".

S.Lavrov onu da əlavə edib ki, mövqeləri daha da yaxınlaşdırmaq və kompromis əldə etmək üçün həmsədrlərin ardıcıl səyləri vacibdir.

O da məlumdur ki, əsir və girovların dəyişdirilməsində Azərbaycan hər zaman maraqlı olub. Bu işdə hansısa problem yaratmır. Ancaq Azərbaycandan fərqli olaraq, Ermənistan zaman-zaman bununla bağlı aparılan danışıqları yoxuşa sürükləyib. Bu səbəbdən indiyə qədər sözügedən məsələ öz həllini tapmayıb. O üzdən, bütün bunların günahkarı Ermənistan deyilmi?

Məsələyə münasibət bildirən Azərbaycanlı Əsir və Girovlarla bağlı Məlumat Mərkəzinin koordinatoru Əhməd Şahidovun sözlərinə görə, Ermənistanın destruktiv siyasət aparması səbəbindən problem həllini tapmayıb: "Əsir və girovların dəyişdirilməsi ilə bağlı son həftələr ərzində kifayət qədər intensiv iş aparılır. Azərbaycan dövləti bu məsələ üzərində çox ciddi işləyir. Bir sıra beynəlxalq təşkilatlar prosesə cəlb olunublar. Beynəlxalq Qırmızı Xaç Komitəsi, ATƏT-in Minsk Qrupunun üzvləri də əsir və girovların dəyişdirilməsi ilə bağlı çağırışlar ediblər. Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov da bu məsələ ilə bağlı öz münasibətini bildirib. Təəssüflər olsun ki, Ermənistan hakimiyyəti hələ də bu yöndə konstruktiv addım atmır. Sözügedən məsələ ilə bağlı beynəlxalq çağırışlara məhəl qoymur. Ancaq buna baxmayaraq, Azərbaycan tərəfi əsir və girovların dəyişdirilməsi ilə bağlı öz fəaliyyətini davam etdirir. Azərbaycanın rəsmi qurumları nə mümkündürsə, onu edirlər. Xarici İşlər Nazirliyi, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası, vətəndaş cəmiyyətinin üzvləri olaraq biz bu gün də beynəlxalq təşkilatlarda bu məsələni qaldırırıq. Sözügedən məsələ bizim gündəmimizdədir.

**Bu məsələ Prezident İlham Əliyevin diqqətindədir. İnanıram ki, bu fəaliyyətin nəticəsində rəsmi İrəvan geri addım atacaq. Ancaq hələ ki, bu yöndə müsbət nəticənin əldə olunmamasının yeganə səbəbi və günahkarı Ermənistandır. Ermənistan hakimiyyətinin yeritdiyi destruktiv siyasət üzündən əsir və girovların dəyişdirilməsi baş tutmur. Rəsmi İrəvan bununla bağlı beynəlxalq çağırışlara məhəl qoymur".**



***Vidadi ORDAHALLI***

# Gültəkin Hacıbəyli xalqı "rejimin eksperiment dovşanı" adlandırıb - təhqirə etiraz reaksiyaları...

**Ölkədə heç bir sosial dayağı olmayan radikal müxalifət təmsilçiləri öz səviyyəsiz davranışları, hərəkətləri, verdikləri açıqlamalarla gülünc vəziyyətə düşməkdə davam edirlər. Xalqdan heç bir dəstək almayan, Azərbaycan dövlətinin müstəqilliyinə qarşı olanlara nökərçilik etməkdən yorulub usanmayan bu qüvvələr xalqı təhqir etməkdən də çəkinmirlər.**



*Şakir Ağayev: "Gültəkin Hacıbəylinin xalqı "rejimin eksperiment dovşanı" adlandırması xalqa böyük təhqirdir"*

*Elçin Mirzəbəyli: "Qoy Gültəkin Hacıbəyli gedib, ən yaxşı halda, dovşan ferması yaradıb orada fəaliyyət göstərsin"*

Milli Şuranın "primadonnası" hesab edilən Gültəkin Hacıbəylinin öz fəaliyyəti ilə xalqımıza, dövlətçiliyimizə qarşı etdiyi xəyanətlər bəs deyilmiş, o indi də radikal müxalifətə heç bir dəstək verməyən Azərbaycan xalqını təhqir edib. G.Hacıbəyli çıxışlarından birində xalqı "rejimin eksperiment dovşanı" adlandırmaqdan çəkinməyib.

Xalqı "dovşan" adlandıran anti-Azərbaycan qüvvələrinə nökərçilik edən G.Hacıbəyli görəsən özünü nə zənn edir?

"Novoe vremya" qəzetinin baş readktoru Şakir Ağayev "Bakı-Xəbər"ə açıqlamasında G.Hacıbəylinin xalqı "rejimin eksperiment dovşanı" adlandırmasına kəskin reaksiya bildirdi. O qeyd etdi ki, xalq öz seçimini edib və dövlətə, hakimiyyətə dəstək verir, radikal müxalifət isə xalqdan heç bir dəstək ala bilmir. Bu amilin də radikal müxalifət düşərgəsinin dayaqsız qalmasına səbəb olduğunu deyən Ş.Ağayevin sözlərinə görə, G.Hacıbəyli xalqı təhqir etməklə özünün və təmsil olunduğu radikal düşərgənin xalqa münasibətini ortaya qoyub. Siyasi şoularla gündəmə gəlməyə çalışan radikal düşərgənin təmsilçilərindən birinin xalqı təhqir etməsinin yolverilməz olduğunu deyən Ş.Ağayev hesab edir ki, G.Hacıbəylinin xalqı təhqir etməsi onun xalqa psixoloji təzyiq göstərmək, xalqı qıcıqlandırmaq məqsədindən irəli gəlir. "Gültəkin Hacıbəylinin xalqı "rejimin eksperiment dovşanı" adlandırması xalqa böyük təhqirdir. Ümumiyyətlə, nə Gültəkin Hacıbəylinin, nə də digərlərinin Azərbaycan xalqını təhqir, təhdid etməsi, xalqı ittiham etməsi yolverilməzdir və heç kəsin buna haqqı çatmır. Xalq kimin yanında olmağı, hansı tədbirdə iştirak etməyi, kimə dəstək verməyi həmişə özü seçir. Xalqı zor gücünə nəyəsə cəlb etmək mümkün deyil. Xalqın təhqir edilməsi qəbuledilən deyil. Ümumiyyətlə, xalqı təhqir etmək siyasətlə məşğul olmaq iddiasında olan adama heç vaxt yaraşmaz. Xalq nə üçün "eksperiment dovşanı" adlandırılmalıdır? Xalqın öz seçimidir və xalq da öz seçiminin ardınca gedir, o, radikal qüvvələri seçmir. Hesab edirəm ki, Gültəkin Hacıbəyli bu şəkildə xalqı təhqir etməklə xalqa psixoloji təzyiq göstərmək məqsədi güdür. Bu sözün psixoloji təzyiq vasitəsi kimi xalqa ünvanlanması bir siyasətçiyə yaraşmayan haldır. Onlar xalqı öz sıralarına cəlb edə bilmədikləri üçün, bu cür açıqlamalar verirlər. Gültəkin Hacıbəyli xalqa deyir ki, bizim yolumuzla getmirsənsə, dediklərimizi etmirsənsə, sən beləsən. Bu da yolverilməzdir" - deyə Ş.Ağayev vurğuladı.

"Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli də G.Hacıbəylinin xalqı bu şəkildə təhqir etməsini etirazla qarşıladı. "Ancaq dovşanın ağlına belə bir şey gələr. Çünki G.Hacıbəyli özü indiyə qədər saysız mahiyyətli eksperimentlərdə iştirak edib, "təcrübə dovşanı" funksiyasını yerinə yetirib. Bu aspektdən də özü kimi hamının da eksperiment predmeti olduğunu zənn edir, düşünür. Belə düşüncə sahibinin, ümumiyyətlə, Azərbaycan siyasətində nə işi var, nə yeri var? Qoy G.Hacıbəyli gedib, ən yaxşı halda, dovşan ferması yaradıb orada fəaliyyət göstərsin" - deyə E.Mirzəbəyli qeyd etdi.

***İradə SARIYEVA***

**Prezidentin köməkçisi Əli Həsənov özünün sosial şəbəkə hesablarında paylaşdığı son statusda maraqlı təhlillər aparıb. Beləliklə, radikalların 2 noyabr aksiyası niyə təxirə salındı?**

# Əli Həsənov radikalların aksiyasının üç mahiyyətini aydın göstərdi - mövcudluq üsulu, şəxsi yaşayış mənbəyi və xaricdəki mərkəzlərlə rabitə vasitəsi...

Əli Həsənov yazır:

"Bildiyiniz kimi, özünü Milli Şura adlandıran bir qrup radikal düşüncəli insanın toplaşdığı qurum noyabrın 2-də Bakı şəhərinin mərkəzində yenidən qanunsuz mitinq keçirmək fikrindən daşındıqlarını bəyan edib. Qurumun funksionerləri ard-arda açıqlama verərək niyə mitinq etmədikləri (əslində, edə bilmədikləri) barədə müxtəlif versiyalar səsləndirirlər: "guya ki, Azərbaycan hakimiyyəti müəyyən təxribatlara əl atacaqmış, hansısa cinsi azlıqların mitinq meydanına gətirilmə ehtimalı varmiş, Gəncə hadisələri təkrarlana bilərmiş, radikal islamçı qruplar məqsədli şəkildə ön plana çıxarıla bilərmiş" və s. Anadolu türklərində gözəl bir deyim var: "Üzrü qəbahətindən betər olanlar".

**Azərbaycan dövlətinin ünvanına və onu təmsil edən iqtidarın əleyhinə uzun müddətdir həqiqətə uyğun olmayan "ciddi fakt"lar uydураraq, xarici aləmdə xalqımızı aşağılayan, daxildəsə vətəndaşları riyakarcasına aldadaraq qanunsuz aksiyalara səsləyən bu antimilli Şura indi də eyni riyakarlıqla mitinqi niyə təxirə salmaları haqqında qondarma səbəblər uydurmağa çalışır. Çox ümid edirəm ki, Milli Şuranın hansısa bir funksioneri özündə cəsarət tapıb mitinqin baş tutmamasının əsl səbəbini - radikal müxalifətin Azərbaycan xalqı tərəfindən tam boykot edildiyini açıq etiraf edəcək. Zamanında etiraf etmək insanı alçaltmaz, əksinə, ucaldar deyib müdriklərimiz...**

2 noyabr ətrafında cərəyan edən hadisələr hazırda bir sual ortaya çıxarıb: görəsən, Azərbaycanda hazırda hər hansı mitinq, yaxud etiraz aksiyası keçirmək, xüsusən də radikal müxalifətin qeyri-sağlam məqsədlər üçün israrla təşkil etmək istədiyi qeyri-qanuni mitinqlər cəmiyyətin tələbatından doğur, yoxsa təşkilatçıların siyasi mövcudluğunun göstəricisidir, xarici anti-Azərbaycan qüvvələrlə onların əlaqələri üçün vasitədir və şəxsi maliyyə ehtiyaclarının ödənməsi mənbəyidir? Üzümü radikal müxalifətin təmsil olunduğu Milli Şura və AXCP rəhbərlərinin qeyri-real vədlərlə aldadaraq, öz şəxsi ambisiyalarını gerçəkləşdirmək üçün irəli verdiyi azsaylı Azərbaycan vətəndaşlarına tuturam: əziz vətəndaşlar, məgər sizə aydın deyilmi ki, AXCP və Milli Şuraya rəhbərlik edən bu şəxslər öz çirkin ambisiyalarını reallaşdırmaq üçün sizi fəlakətə sürükləyir? Məgər siz fəqrində deyilmisiniz ki, bir ayağı burada, bir ayağı xaricdəki anti-Azərbaycan mərkəzlərinin qapısında olan, xarici ölkələrin səfirliklərində özlərinə düşərgə salan bu insanlar sizdən öz "qarşılıqlı-faydalı" ittifaqları naminə vasitə kimi istifadə edirlər? Üzümü bir daha bu antimilli ünsürlərin şirin vədlərinə uyan, xaricdəki məkrli mənfəət qruplarının təsirinə düşən, öz dövləti ilə zor dilində danışmaq xülyasına qapılan, təcrübəsizliyi, məhdud dünyagörüşü səbəbindən reallıq duyğusunu itirən azsaylı vətəndaşlarımıza tutaraq bildirmək istəyirəm ki, əziz dostlar, sizin bütün problemləriniz bizim, Azərbaycan dövlətini təmsil edən mövcud iqtidarın problemləridir. Hörmətli cənab Prezident İlham Əliyev xalqımızın sosial-iqtisadi vəziyyətinin, maddi rifah halının daim yüksəlməsi, Qarabağ probleminin ədalətli həlli, ölkəmizin inkişafı, tərəqqisi, müasirləşməsi, dünyada söz sahibi olması üçün gecəli-gündüzlü yorulmadan çalışır. O öz çıxışlarında vətəndaşları dəfələrlə ölkəmizin ictimai-siyasi, sosial-mədəni həyatında fəal olmağa səsləyib. Cənab Prezidentin bütün çıxışlarında "vətəndaş fəallığı" qırmızı xətlə keçir. Azərbaycan dövləti və hakimiyyəti vətəndaşlara heç bir siyasi ayrı-seçkilik qoymur. Bizim üçün iqtidar, müxalifət, bitərəf ayrımı yoxdur. Odur ki, gəlin problemlərimizi birlikdə, qanunlarımıza hörmətlə yanaşaraq, danışaraq, məsləhətləşərək, dilaoqla həll edək. Biz hər bir sosial qrupu, ayrı-ayrı vətəndaşları dinləməyə, məsələlərin birgə həllini, çıxış yollarını aramağa hazırıq. İflasa uğramış radikal müxalifət xaricdən qrantlar almaq, öz mövcudluğunu davam etdirmək üçün sadə insanlardan, xüsusilə də, gənclərdən sipər kimi istifadə edir. Odur ki, bu mitinqlər də radikal müxalifətin cılız merkantil maraqlarına xidmət edir. Kim bu ölkədə dəyişiklik, yenilik, islahat, firavanlıq, öz sosial problemlərinin həllini istəyirsə, bu istəyin tək bir ünvanı varsa, o da ölkə başçısı və onun hakimiyyət komandasıdır.



**Bir də üzümü öz ambisiyalarına görə Azərbaycan vətəndaşlarını antidövlət fəaliyyətinə sövq edən radikal müxalifət dairələrinə tuturam: insanlar yanlış yoldan, qanunsuz hərəkətlərdən, qarşıdurmadan, öz xalqı, ölkəsi, dövləti əleyhinə işlərdən, cəmiyyətdəki dincliyi, asasyişi, sabitliyi pozmaq niyyətlərindən nə qədər tez əl çəksə, bir o qədər yaxşıdır. Milli Şuranın rəhbərliyində və tərkibində olanlar bilməlidirlər ki, belə radikal hərəkətlərlə Azərbaycanda heç nəyə nail olmaq, ölkəni ötən yüzilin 90-cı illərinin əvvəlinə qaytarmaq, vətəndaşlarımızı, yeni nəsil gənclərimizi yanlış yola sürükləmək artıq mümkün deyil".**

***Əli Həsənov***
***Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan diplomatiyası Ermənistanı rəsmi Moskva qarşısında daha bir diplomatik çətinliyə saldı...

**Dağlıq Qarabağ münaqişəsi ilə bağlı erməni rəsmilərinin son dövrlərdə verdiyi absurd açıqlamalar, nəinki Azərbaycan, heç dünyanın digər dövlətləri, o cümlədən Ermənistanı bir ölkə kimi var edən Rusiya tərəfindən də qəbul edilmir. Qeyd edilənlərə konkret nümunə kimi Ermənistan müdafiə naziri David Tonoyanın "Dağlıq Qarabağ məsələsi həll olunub" bəyanatına Moskvada verilən reaksiyanı göstərmək olar.**

Tonoyanın bir müddət əvvəl qeyd edilən xüsusda səsləndirdiklərinə rəsmi Bakı da sərt münasibət sergiləyib. Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva bunu xəstə təfəkkürün məhsulu adlandırıb: "Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə beynəlxalq vasitəçilərin iştirakı ilə uzun illərdir ki, səylərin davam etdiyi bir vaxtda işğalçı ölkənin müdafiə nazirinin belə bir fikirlə çıxış etməsi yalnız xəstə təxəyyülün məhsulu ola bilər. Bilirsiniz, faşizmi qəhrəmanlaşdıran, Azərbaycanın ərazilərini işğal edərək bu torpaqlarda yaşayan yerli azərbaycanlılara qarşı qanlı etnik təmizləmə həyata keçirən və Xocalı soyqırımı kimi vəhşilik törədən bir ölkənin müdafiə nazirindən daha nə gözləmək olar?! Ancaq bir məqamı vurğulamaq istərdim, Ermənistanda qəhrəman səviyyəsinə yüksəldilən faşist cəlladı Qaregin Njde də vaxtilə məsələnin həll edildiyini düşünürdü, ancaq onun aqibətinin necə olduğu hamıya bəllidir. Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüququn prinsipləri tam təmin edildikdən və ədalət bərpa olunduqdan, beynəlxalq ictimaiyyətin də tələb etdiyi kimi, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyinin və ərazi bütövlüyü bərpasından sonra həll olunacaq".

Bu məsələyə indi Rusiya tərəfindən də sərt münasibət sergilənir. Rusiyanın xarici işlər naziri Sergey Lavrov erməni nazirin yanaşmasının Qarabağ münaqişəsinin nizamlanması istiqamətində problemlər yaratdığını qeyd edir: "Bu kimi bəyanatlar, yəqin ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı aparılan işə kömək etmir". Nazir bildirib ki, səslənən emosional bəyanatlar işə kömək etmir: "Mövqeləri yaxınlaşdırmaq və güzəşt əldə etmək üçün həmsədrlərin davamlı səyləri lazımdır". Xatırladaq ki, son dövrlərdə Rusiya nazir səviyyəsində artıq ikinci dəfədir ki, Ermənistan rəsmilərinin absurd bəyanatlarını qəbuledilməzlyini bəyan edir. Bundan öncə Ermənistanın baş naziri Nikol Paşinyanın avqustun 5-də Xankəndidə səsləndirdiyi "Qarabağ Ermənistandır, vəssalam" bəyanatına da Moskva neqativ münasibət sərgiləmişdi. Xatırladaq ki, Soçidə "Valday" diskussiya klubunun iclasında Dağlıq Qarabağ münaqişəsi ətrafındakı vəziyyət barədə danışarkən Sergey Lavrov Ermənistanın baş nazirini möhkəm pərt edə biləcək bəyanat verib. O, Paşinyanın "Qarabağ Ermənistandır, vəssalam" bəyanatının danışıqlar prosesini əngəllədiyini bildirib. Buna qədər isə Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarova eyni mövqe sərgiləmişdi. O, Paşinyana xitabən bildirmişdi ki, bəyanatlar səsləndirilərkən çox diqqətli olmaq lazımdır: "Azərbaycan və Ermənistan arasında münaqişə çox çətin bir prosesdir. Bu baxımdan bəyanatlara diqqət edilməlidir. Bu, başlanğıc nöqtəyə qayıtmamağımız və prosesin sıfıra düşməməsi üçün vacibdir. Əlbəttə ki, biz tərəflərin bəyanatlarının sülh yolu ilə münaqişənin həllinə yönəlmiş ümumi səylər kontekstinə uyğun gəlməli olduğu qənaətindəyik. Çox istərdik ki, daxili siyasi proseslərə hörmətlə yanaşaq. Lakin bununla yanaşı, bütün tərəflərin eyni prinsipdən - sürətli sülh yolu ilə həll etmə prinsipindən çıxış etməsini də istərdik".

İndi isə Lavrov bu dəfə Tonoyanın sərsəmləmələrinin Qarabağ münaqişəsinin həllinə xidmət etmədyini diqqətə çatdırır və bu hal Moskvanın İrvanın konfliktə yanaşamasından narazı olduğunu aydın nümayiş etdirir. Nəzərə alsaq ki, Rusiya Minsk Qrupu həmsədr ölkələrindən biridir, belə olan vəziyyətdə İrəvan rəsmilərinin davranışı Rusiyanın vasitəçilik missiyasına daban-dabana ziddir. Bunu isə Rusiya siyasi hakimiyyəti qəbul etmir. Sergey Lavrovun son açıqlamaları da qeyd edilənləri təsdiq edir. Göründüyü kimi, Rusiya artıq Lavrov səviyyəsində bu məsələyə reaksiya verir. O da aydındır ki, Lavrov burada həm də prezident Vldaimir Putinin mövqeyini əks etdirir. Beləliklə, baş verənlərin təhlili göstərir ki, Moskva İrəvanın mövqeyindən əsaslı surətdə narazıdır. Bunu rus politoloq Stanislav Tarasov Dağlıq Qarabağ münaqişəsi ətrafında baş vermiş son inkişaflara toxunarkən da təsdiq edir: "Moskva Qarabağ münaqişəsi ətrafında yaranan vəziyyətdən məmnun deyil. Özü də bunların Erəmnistandan qaynaqlandığı da sirr deyil. Belə vəziyyətdə Azərbaycan tərəfi hesab edir ki, Paşinyan yeni səhvlərə yol verəcək, Rusiyadan uzaqlaşacaq. Həqiqətdir ki, Paşinyan səhvlərə davam etsə, o zaman Azərbaycan Qarabağ istiqamətində manevr etmək üçün yeni çoxlu imkanlar qazanacaq. Erməni rəsmilərinin yanaşmaları Bakıınn bu imkanları əldə etməsinə münbit zəmin yaradır".

O, bu vəziyyətdə danışıqların da müsbət nəticələrlə sonuclanmasını mümkünsüz adlandırıb. Ekspert, bu mənada, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyanın Bratislavada baş tutacaq görüşü barədə bildirib ki, bu adi bir görüşdür: "Hər hansı mövzulu sensasiya və ya irəliləyiş gözləmirik, çünki nazirlərin nədən danışacağı ilə bağlı görüşün ilkin gündəmi belə açıqlanmayıb. Paşinyan hakimiyyətə gəldikdən sonra başlayan Qarabağ danışıqlarının yeni intensiv dövrü kəskin şəkildə yavaşlayıb. Biz bilirik ki, həmin dövrdə Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında bir neçə görüş baş tutub. Daha sonra isə Əliyev və Paşinyan arasında əlaqələr oldu. Lakin bu gün dialoq templəri kəskin şəkildə yavaşlayıb. Bu gün biz Əliyev və Paşinyanın yeni görüş imkanlarını görmürük. Gələcəkdə hadisələrin necə inkişaf edəcəyini söyləmək isə çətindir". Politoloq qeyd edib ki, Azərbaycan tərəfi hazırda gözləmə mövqeyindədir: "Serj Sarkisyanın hakimiyyət illərində olduğu kimi hazırda Paşinyanın Rusiya ilə əlaqələri yaxşı deyil. Həqiqətən də Rusiya Ermənistan hakimiyyətindən çox narazıdır". Bütün bunlardan bir daha bəlli olur ki, Bakı mövqelərini yeni geosiyasi durumda xeyli möhkəmləndirib.

İndi Ermənistanı narahat edən məqamlardan biri də budur ki, belə vəziyyətdə Azərbaycanın hərbi əməliyyatlarla ərazi bütövlüyünü bərpa etməsinə heç kim, o cümlədən Rusiya mane olmayacaq. Bunu erməni şərhçi Aram Sarkisyan da xüsusi olaraq vurğulayır:"Bakı mövqeyini gücləndirir, beynəlxalq miqyasda əlavə dəstək alır. Paralel olaraq hərbi hazırlığını da artırır. Gələn il üçün Azərbaycanın hərbi xərcləri də bunu təsdiq edir. 2020-ci il üçün Ermənistan dövlət büdcəsi layihəsində nəzərdə tutulan hərbi xərclər isə çox azdır. Belə ki, 2019-cu ildə hərbi xərclərlə müqayisədə 2020-ci il üçün hərbi və ya müdafiə büdcələrində artım olduqca kiçikdir. Cəmi 0,8 faiz artım olacaq. Təbii ki, Ermənistan-Azərbaycan münaqişə vəziyyəti və Ermənistanın təhlükəsizlik problemləri nəzərə alınaraq, bu rəqəm və göstəricilərin təhlili ümumiyyətlə Ermənistan və Azərbaycan arasındakı rəqabət məntiqində aparılır, Azərbaycanın qeyd etdiyi rəqəmlərlə müqayisə edilir. 2018-ci ildə Stokholm İnstitutuna görə, Azərbaycanın hərbi xərcləri (təqribən 1.7 milyard dollar) 2017-ci illə müqayisədə əhəmiyyətli dərəcədə artmayıb (təxminən 1.5 milyard dollar), rəsmi məlumatlara görə, 2019-cu ildə qonşu ölkənin hərbi büdcəsi 1.88 milyard dollar təşkil edib. Azərbaycan hökuməti 2020-ci ilin büdcə layihəsinə əsasən müdafiə və milli təhlükəsizlik üçün 2 milyard 267 milyon dollar ayırmağı planlaşdırır. Bu, 2019-cu ildə ayrılan məbləğdən 20,9% çoxdur. Burada, əlbəttə ki, müdafiə və təhlükəsizlik xərclərinin real həcmi barədə daha dəqiq məlumat əldə etmək üçün nəzərə alınmalı bəzi nüanslar var. Bu həm Ermənistana, həm də Azərbaycana aiddir. Hesablanmayan bəzi rəqəmləri nəzərə alsaq, Ermənistanın hərbi büdcəsinin həcmi təhlükəsizlik problemlərimizlə müqayisədə təsiredici görünmür. Bu, Nikol Paşinyanın rəhbərlik etdiyi hökumətin tənqidçilərinə ölkəmizin təhlükəsizlik sahəsinə laqeyd qaldığı bir vaxtda Azərbaycanın yeni müharibəyə hazırlaşdığını bəyan etmə imkanı verir. Özü də bunlar o fonda cərəyan edir ki, Azərbaycan burada yanına yeni güclər alır. Məsələn, Rusiyanın Bakı və İrəvana münasibəti artıq fərqlidir. Moskvanın bizi müdafiə edəcəyinə artıq inam yoxdur. Ümumiyyətlə, Rusiya Ermənistanda yürüdülən Qarabağ siyasətindən də narazıdır". Digər tərəfdən, erməni ekspert etiraf edir ki, Azərbaycandan fərqli olaraq, ölkəsində hərbçilərin durumu da olduqca ağırdır: "Keyfiyyətli və səmərəli olmaq üçün ordunun hərbi qulluqçularının yaşayış səviyyəsini qaldırmalı, onların ən yüksək sosial təbəqə olmasını təmin etməyi bacarmalıyıq. Təəssüf ki, bu gün tamamilə əksinədir. Bu gün hərbi personal sosial sahənin ən aşağı səviyyəsindədir. Amma Azərbaycanda əks proses müşahidə olunur və onlar orduya daha çox diqqət yetirir".

Bütün bunlar yaranmış durumda erməni tərəfinin ciddi narahatlıq içində olduğunu aydın nümayiş etdirir. İndi Rusiyadan da əli üzülən Ermənistan Qarabağ münaqişəsinin hərbi həlli halında çox sarsıdıcı zərbələr alacağını yaxşı bilir. Hadisələrin elə bu istiqamətdə inkişafı isə düşmənin təşviş və qorxusunu daha da artırır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Bu gün ən böyük iqtisadiyyata malik ölkələrdən biri kimi Çinin beynəlxalq miqyasda siyasi rolunun da getdikcə artması müşahidə olunur. Belə vəziyyətdə Çinin özünün də artıq dünya siyasətində və iqtisadiyyatında aktivliyi qeydə alınır. Artıq yaranmış durumda Pekinin xüsusi diqqət mərkəzində yer alan məkanlardan biri qismində Cənubi Qafqazın da çıxış etdiyi görünür.**

# Bakı İrəvanın "Çin ümidlərini" də məhv etdi




Bu vaxta qədər sözügedən region daha çox ABŞ, Rusiya, Avropa İttifaqının xüsusi maraq dairəsində yer alıb. Amma görünən budur ki, onlar sırasına indi Çin də daxil olmağı düşünür. Özü də, digər qlobal oyunçular kimi, Çinin də burada əsas müttəfiq qismində Azərbaycanı qəbul etməsi aydın görünür. Ümumtyyətlə, son dövrlərdə Çin Azərbaycanla iqtisadi, siyasi, hərbi və digər istiqamətlər üzrə əməkdaşlığı genişləndirir. Hətta Çin Beynəlxalq Ticarətin Təşviqi Şurasının mətbu orqanı olan "China trade news" qəzetində bunu Azərbaycan-Çin ikitərəfli münasibətlərinin qızıl dövrü kimi xarakterizə edir. Burada qarşılıqlı hörmət və dostluq prinsiplərinə əsaslanan Azərbaycan-Çin münasibətlərinin qədim tarixi olduğu, xalqlarımızın hələ İpək Yolu vasitəsilə sıx ticarət və humanitar əlaqələr qurduğu vurğulanır. Qeyd olunur ki, hazırda Azərbaycanın və Çinin dövlət başçılarının siyasi iradəsi və aparılan intensiv dialoq ölkələrimiz arasında əlaqələrin genişlənməsi üçün əlverişli imkan yaradır.

Nəşr son vaxtlar iki ölkə arasında ticarət dövriyyəsində müşahidə olunan davamlı yüksəlişdən, o cümlədən Azərbaycandan Çinə ixracın artmasından söz açır, bu işdə Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq komissiyasının rolunu vurğulayır. Bildirilir ki, ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi, Azərbaycan məhsullarının Çin bazarında təşviqi məqsədilə kompleks addımlar atılır, Çinə ixrac missiyaları təşkil edilir, Azərbaycan Çində təşkil olunan beynəlxalq sərgilərdə "Made in Azerbaijan" vahid ölkə stendi ilə təmsil olunur. Bu tədbirlərin nəticəsi olaraq Azərbaycan məhsullarının Çinə ixracı istiqamətində bir sıra razılaşmalar əldə olunub, müqavilələr imzalanıb. Hazırda Azərbaycan məhsullarının Çinin "BHG" və "DIG" kimi irimiqyaslı supermarketlər şəbəkəsində satışı həyata keçirilir. "Made in Azerbaijan" brendinin Çin bazarında təşviqi məqsədilə bu ölkədə Azərbaycanın ticarət və şərab evləri yaradılıb. Yaxın zamanlarda Çində daha bir neçə şərab və ticarət evinin açılması nəzərdə tutulur.

Türkiyənin "habertürk" portalı da yazır ki, Azərbaycan və Çin Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə fəaliyyətlərini aktivləşdirib. Qeyd edilir ki, Çinin "Bir kəmər, bir yol " layihəsi çərçivəsində dəmir yolu marşrutu Avropaya məhsulların çatdırılması üçün vacibdir: "Bu baxımdan Mərkəzi Asiya ölkələri, eləcə də regiondakı geopolitik mövqeyinə görə Azərbaycan sözügedən marşrut üçün mühüm əhəmiyyət kəsb edir".

Vurğulanır ki, rəsmi Bakı Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna böyük önəm verir, çünki bu layihə Çinlə ikitərəfli əlaqələrin inkişafında əhəmiyyətli hesab edilir: "3 500 kilometrlik bu marşrut həmçinin Qazaxıstanın Dostık şəhəri ilə Azərbaycanın paytaxtı Bakı şəhərini birləşdirir".

Portalda 2017-ci ildə istifadəyə verilmiş Bakı-Tiflis-Qars dəmir yolu xəttinin əhəmiyyəti xüsusi olaraq vurğulanır, bu yolun Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunın Avropa istiqamətində davamlılığını təmin etdiyi qeyd olunur. Bundan başqa, yazıda deyilir ki, Çindən başlayaraq Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Avropaya uzanacaq Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ümumilikdə 4 766 kilometr olacaq: "Yüklərin 508 km məsafədə dənizlə daşınması nəzərdə tutulur. Qazaxıstana göndəriləcək məhsullar Xəzər dənizi vasitəsilə gəmilərlə Azərbaycana çatdırılacaq. Analizlərə əsasən, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun tam fəaliyyətindən sonra üzv ölkələr ilk ildə 1 milyard dollar gəlir əldə edəcək".

Xatırladaq ki, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın yükdaşımalarda iştirak edən müvafiq qurumlarının iştirakı ilə yaradılıb. Daha sonra Ukrayna, Rumıniya və Polşanın da aidiyyəti qurumları marşruta qoşulub. Hazırda bu marşrut Çin-Qazaxıstan sərhədindən başlayaraq Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstandan keçməklə Avropa ölkələrinə qədər uzanır. Bütün marşrut boyu vahid keçid tarifi təyin olunub, "bir pəncərə" prinsipi tətbiq edilib və bu layihə çərçivəsində konteyner qatarları müvəffəqiyyətlə daşınır. Bütün bunlar da Çinin həmin marşruta böyük maraq göstərməsini şərtləndirir. Çinin Azərbaycandakı səfiri Qo Min isə bildirir ki, ölkəsi enerji mənbələrinin kəşfiyyatı və istismarı istiqamətində Azərbaycanla əməkdaşlığı inkişaf etdirməyə hazırdır: "Çinlə Azərbaycan arasında iqtisadi və ticarət sərmayələri, enerji, kənd təsərrüfatı və s. kimi bir sıra sahələrdə əməkdaşlıq üçün böyük potensial var. Gələcəkdə Çin enerji sərvətlərinin kəşfiyyatı və istismarı, infrastruktur, şəbəkə və informasiya texnologiyaları, kənd təsərrüfatı məhsullarının ixracatı kimi sahələrdə Azərbaycanla əməkdaşlığı artırmağa hazırdır". Q.Min, həmçinin, Azərbaycanda Çin şirkətləri üçün daha əlverişli sərmayə mühiti yaradılacağına ümidvar olduqlarını da dilə gətirib.

Bu isə o deməkdir ki, Azərbaycana üz tutan Çin şirkətlərinin də sayı artacaq. Amma münasibətlər təkcə iqtisadi müstəvini əhatə etmir. Çin siyasi müstəvidə də ölkəmizlə sıx əməkdaşlıq edir və hər iki ölkənin hakim partiyaları arasında sıx münasibətlər mövcudddur.

Bu günlərdə isə Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov Çində səfərdə olub, burada Çinin milli müdafiə naziri, general-polkovnik Vey Fenxe ilə görüşüb. Görüşdə hərbi, hərbi-texniki, hərbi təhsil və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi razılaşdırılıb. Bu isə o deməkdir ki, Azərbaycanın Çinlə hərbi sahədə də əlaqələrinin yeni inkişaf dövrü başlanır və region ölkələri arasında Çin bu münasibəti yalnız Azərbaycana göstərir. Bu isə o deməkdir ki, Azərbaycan Çin kimi böyük bir ölkənin timsalında özünə mühüm bir tərəfdaş qazanır.

**Bundan isə hazırda ən çox narahat olan tərəflərdən biri Ermənistandır. Çünki Ermənistanın indiyə qədər Çinlə yaxınlaşmaq niyyəti hansısa ciddi nəticələr verməyib.**

***Nahid SALAYEV***

**Dünyanın iqtisadi, hərbi, siyasi cəhətdən ən güclü ölkələrindən biri sayılan ABŞ-ın xarici isyasətdə bir sıra hallarda ciddi yanlışlıqlara, ikili standartlara yol verməsi də birmənalı həqiqətdir. Bunun real təsdiqi kimi son dövrlərdə ABŞ-ın Azərbaycan və Türkiyə ilə münasibətlərdə yol verdiyi bəzi yanlışlıqları göstərmək olar. Məsələn, radikal müxaliflərlə ABŞ səfirliyinin rəsmiləri arasında hələ də müəyyən görüşlər heç də ikitərəfli əlaqələrin ruhuna uyğun gəlmir.**

# Erməni lobbisindən ABŞ-ın dövlət maraqlarına iki böyük zərbə...




Eləcə də ABŞ-dakı erməni lobbisinin fəaliyyəti ilə ərsəyə gələn 907-ci Düzəlişin hələ də tam ləğv edilməməsi barədə eyni fikirləri səsləndirmək olar.

Qondarma "erməni soyqırımı"nın tanınması ilə bağlı ABŞ Konqresinin Nümayəndələr Palatasında atılan addımlar da qəbuledilən amil deyil. Xatırladaq ki, Türkiyə ilə yanaşı, məsələyə Azərbaycan da sərt reaksiya verib. Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bu xüsusda bildirib: "ABŞ Nümayəndələr Palatasının qondarma "erməni soyqırımı" haqqında qəbul etdiyi 296 saylı qətnaməni pisləyir, qərəzli və ədalətsiz hesab edirik. Bu qətnamənin heç bir siyasi, hüquqi və tarixi əsası yoxdur, ermənipərəst lobbi qruplarının səyləri nəticəsində qəbul edilib. Həmin dövrdə baş vermiş hadisələr siyasətçilər deyil, tarixçilər tərəfindən araşdırılmalıdır". Həqiqətən də baş verənlər bu qənaətə gəlməyə əsas verir ki, ABŞ-ın xarici siyasəti bir tərəfdən getdikcə daha çox Vaşinqtondakı etno-milliyyətçi lobbidən asılı vəziyyət düşür, digər tərəfdən dayanıqsız və müvəqqəti olur. Belə vəziyyət ABŞ-ın uzunmüddətli milli maraqlarına və ümumilikdə demokratiyanın prinsiplərinə ziddir. İndiki vəziyyətdə erməni lobbisi ABŞ-ın xarici isyasətində ciddi təhdid mənbəyinə çevrilir. Məhz bu lobbinin fəaliyyəti nəticəsində oktyabrın 29-da Nümayəndələr Palatasında Türkiyəyə qarşı iki sənəd qəbul olunub. Onlardan biri "erməni soyqırımı"nın tanınması ilə bağlı layihədir. Xatırladaq ki, qanun layihəsini ermənipərəst konqresmen Adam Şiff təqdim edib. 405 konqresmen qətnamənin lehinə, 11-i isə əleyhinə səs verib.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-ın Nümayəndələr Palatasında Türkiyə əleyhinə qəbul olunan qətnamələrə belə münasibət bildirib: "Oktyabrın 29-da Konqresdə qəbul edilən iki qətnamənin şahidi olduq. Bundan ölkəmizə qarşı sui-istifadə edə bilərlər. Bu qətnamələrin heç bir gücü yoxdur və biz onu tanımırıq. Açıq desəm, özləri çalıb özləri oynayacaqlar". Ölkənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib: "Tarixdən siyasi məqsəd üçün istifadə etməkdən ötrü qəbul edilən bu utancverici qərarın hakimiyyətimiz və xalqımız üçün heç bir hüquqi əsası yoxdur". Yeri gəlmişkən, son 40 ildə Ağ Ev ilk dəfə bu məsələ ilə bağlı Konqresə heç bir tövsiyə verməyib. Əvvəllər belə təşəbbüslərin qarşısı Konqresə çıxmadan alınardı. Digər qəbul edilən sənəd isə Türkiyəyə qarşı sanksiyaların tətbiqini nəzərdə tutur. İndiki vəziyyətdə baş verənlər ABŞ-ın Türkiyə kimi önəmli bir müttəfiqi erməni lobbisi üzündən itirməkdə olduğunu göstərir. Bunu Türkiyənin "T24" xəbər portalında yer alan fikirlər də təsdiq edir:"ABŞ Nümayəndələr Palatası "erməni soyqırımı" iddiasını böyük çoxluqla qəbul edib. Üstəlik, Türkiyəyə iqtisadi sanksiya tətbiqini ehtiva edən təklifi də. İndi Senat və prezident Trampın qərarı gözləniləcək. Bu zamana qədər ABŞ "erməni soyqırımı" iddiasını rədd edərək bunun "böyük fəlakət" olduğunu söyləsə də, iddianın qəbul edilməsinin səbəbi əsla yeni sənədlər və ya məlumatlar deyil.

Nümayəndələr Palatasının bu qərarı qəbul etməsinin səbəbi Türkiyənin "Sülh çeşməsi" əməliyyatıdır. Bu, uzun müddət Türkiyəni oyalayaraq ləngitdirdiyi əməliyyatın reallaşmasına, YPG-nin sərhəddən 30 kilometr geriyə çəkilməsinə təpki olaraq alınmış qərardır. ABŞ-ın dəstəyi ilə PKK-PYD-YPG-nin Türkiyə ilə sərhəddə yaratdığı kantonların birləşməsilə bütünləşəcək dövlətcik layihəsinin həlelik çökməsi ABŞ-ı narahat edib və o, Nümayəndələr Palatasında Türkiyəni "soyqırımçı" adlandırıb. Şübhəsiz, köçürülmə ağrılı bir hadisədir. Ancaq bu illər ərzində çox böyük sürgünlərə məruz qalan təkcə ermənilər deyil ki... Türklər də böyük əzablara düçar olub və ermənilərin qırğınlarına məruz qalıblar. Tarixi faktlar göstərir ki, türkləri və Türkiyəni "soyqırımçı" elan etmək gerçəklərin təkzib etdiyi iddiadır.

Soyqırımı hesab etmək üçün bir fəlakətin müəyyən şərtləri olmalıdır. Türklər etnik erməniləri yox etmək və ya kökünü qurutmaq məqsədi ilə hərəkət etməyiblər. 1915-ci il hadisələrini bu cür şərh etmək yalnız siyasi cəhddir. Türkləri və Türkiyəni soyqırımçı elan etmə cəhdi. Halbuki, türklərin tarixində soyqırımı deyilən bir şey yoxdur. "Erməni soyqırımı" iddialarını rədd edən daha bir mühüm hadisə məşhur Malta hadisəsidir. İttihad və Tərəqqi Komitəsinin rəhbərləri niyə Maltaya aparılıb? Malta hadisəsinin mənası nədir? İngilislərin İttihad və Tərəqqi Komitəsinin 141 hərbi və mülki məmurunu Maltaya aparmalarının və 1919-1921 illəri arasında həyata keçirilən dindirilmələrin səbəbi "erməni soyqırımı" iddiasını araşdırmaq idi. Bu araşdırmanı İngiltərənin baş prokuroru aparıb. Baş prokuror dəlil tapmaq üçün çox səy göstərib.

İngiltərə Baş Prokurorluğu ABŞ, Misir, Qafqaz və İraqda "erməni soyqırımı" iddiasına dair çoxlu dəlil axtarıb, lakin tapa bilməyib. Uluç Gürkanın "Erməni Problemini Anlamaq" kitabında vurğuladığı kimi, Kral Britaniya baş prokuroru "erməni soyqırımı" iddiaları üçün heç bir hüquqi dəlil tapmayıb. Məhkəmə işinə ehtiyac olmadığı qənaətinə gəlinib. Baş Prokurorluğun qərarı ilə Maltada tutulanlar sərbəst buraxılıb. Malta istintaqında soyqırımına dair hər hansı bir dəlil olsaydı, almanların Holokosta görə mühakimə olunması üçün qurulan Nürnberq məhkəməsinə bənzər bir şey baş verərdi. Millətlər Liqasında bu yöndə hazırlıq görülüb, lakin Krallığın Baş Prokurorluğu cinayət məsuliyyətinə cəlb olunmamaq barədə qərar qəbul edib, yəni məhkəmə araşdırması olmayıb. Gürkanın sənədlərə əsaslanan kitabını oxumağa davam edək: "Bəzi amerikalı missionerlərin hesabatlarından göründüyü kimi, ermənilər deportasiya qərarından əvvəl ələ keçirdikləri kəndlərdə zülmlər ediblər. Osmanlı torpaqlarını işğal edən Rusiyanı xilaskar sandılar və nəinki onu dəstəklədilər, həm də onun tərəfində vuruşdular. Bu vəziyyət Osmanlı hökumətini problemi uzun müddət istifadə etdiyi köçürmə üsulu ilə həll etmək qərarına yönləndirdi. Ancaq Osmanlı hökumətinin erməni millətini məhv etmək planı və qərarına dair ciddi bir dəlil yoxdur".

Uluç Gürkan tez-tez vurğulayır ki, ingilislər Malta sənədlərini elan etsə, "erməni soyqırımı" iddiasının əsassızlığı ortaya çıxacaq. ABŞ Nümayəndələr Palatası, ondan əvvəl eyni qərarı qəbul etmiş ölkələr kimi, türkləri "soyqırımçı"olaraq göstərmək və bir milləti günahlandırmaqla nifrət cinayəti törədib". Bütün bu qeyd edilənlər "erməni soyqırımı" barədə səslənən fikirlərin sadəcə quru iddialar olduğunu təsdiq etməklə yanaşı, ABŞ-ın erməni lobbisi üzündən türk dünyasında önəmli müttəfiqlərini itirmək üzrə olduğunu da aydın nümayiş etdirir.

***Tahir TAĞIYEV***

"Mən sizə göstəriş vermişdim ki, qəsəbədaxili yollar, Bakıətrafı qəsəbələrin yolları da abadlaşdırılmalıdır". Bunu Prezident İlham Əliyev oktyabrın 31-də paytaxtın Yasamal rayonunda Şəfayət Mehdiyev küçəsinin Tbilisi prospektindən Landau küçəsinədək olan hissəsində yenidənqurmadan sonra görülən işlərlə tanış olarkən deyib.

*"Bakıətrafı kənd və qəsəbələrin çoxunda məhəllədaxili yollar bərbad vəziyyətdədir"*

# Bakıətrafı qəsəbə yollarının təmiri Prezidentin çıxışlarının daimi mövzuları sırasında...

***Rəsul Cahangirli:** "Ölkə başçısının bu məsələyə xüsusi diqqət ayırması təqdirəlayiqdir"*



Dövlət başçısı bildirib ki, bununla bağlı müvafiq işlər görüləcək: "Siz ilkin təklifləri göndərmisiniz, baxılacaq və müvafiq göstərişlər veriləcək, sərmayə ayrılacaq ki, biz Bakı qəsəbələrində bütün daxili yolları abadlaşdıraq. Torpaq yollar asfaltlanmalıdır. Bakı şəhərində, o cümlədən, onun qəsəbələrində torpaq yol olmamalıdır".

Əvvəl Kürdəxanı qəsəbəsinin yollarının abadlaşdırıldığını vurğulayan Prezident İlham Əliyev əlavə edib ki, indi digər qəsəbələr növbədədir.

Bakı ətrafında elə qəsəbə və yaşayış massivləri var ki, yolları ucqar dağ kəndlərinin yollarından fərqlənmir. Bu problem ölkə başçısı İlham Əliyevin də diqqətini cəlb etdiyindən, qəsəbədaxili yolların təmir olunması yenidən diqqət mərkəzindədir. Bir müddət əvvəl ölkə başçısı Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədovu qəbul edərkən ona xüsusi tapşırıqlar verib. Bu dəfə də Prezident məsələyə xüsusi diqqət ayırdı. Görünən odur ki, sözügedən problemin həlli getdikcə prioritet məsələyə çevrilir.

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, ölkə başçısının bu məsələyə xüsusi diqqət ayırması təqdirəlayiqdir: "Çünki Bakıətrafı kənd və qəsəbələrin yolları yaxşı vəziyyətdə deyil. Bu gün elə Bakıətrafı yaşayış məntəqələri var ki, orada əhalinin sayı 100 min nəfərə yaxındır. Məsələn, Qaraçuxur, Maştağa, Bakıxanov, Binəqədi, Biləcəri qəsəbələrindəki əhalinin sayı 100 min nəfərə yaxınlaşır. Binə qəsəbəsində isə əhalinin sayı 130 min nəfərə çatıb. Bakıətrafı kənd və qəsəbələrin çoxunda məhəllədaxili yollar bərbad vəziyyətdədir. Kosmetik xarakterli müəyyən işlər görülür, iki gündən sonra yollar dağılır. Ya görürsən ki, asfalt örtüyü yaxşı salınmayıb, ya da heç, ümumiyyətlə, yol asfalt deyil. Məhəllədə yaşayanlar öz məhdud imkanları ilə yolları düzəltmək istəyirlər. İritonnajlı avtomobillərin intensiv hərəkəti kənd və qəsəbədaxili yolların daha da bərbad günə düşməsinə gətirib çıxarır. Yağış yağan kimi yolların bir çoxu su altında qalır, palçıq əlindən tərpənmək olmur. Uşaqlar məktəbə gedə bilmirlər. Yay aylarında da toz əlindən tərpənmək olmur. O dərəcədə ciddi problemlər var. Hesab edirəm ki, mərhələli şəkildə bu problemlər həll edilməlidir. Bu zaman yolların keyfiyyətinə xüsusi diqqət yetirilməlidir".

***Vidadi ORDAHALLI***

Demək olar ki, hər gün Bakı-Sumqayıt yolunda tıxac yaranır və bu, mənzil başına tələsən vətəndaşlarda ciddi narazılığa səbəb olur. Bakı-Sumqayıt yolunda müşahidə olunan tıxacı aradan qaldırmaq üçün müxtəlif fikirlər səslənir

*"İki-üç mərtəbəli yol qovşaqları salınarsa, həmin istiqamətdə müşahidə olunan nəqliyyat sıxlığını aradan qaldırmaq mümkün olar"*

# Bakı-Sumqayıt yolunu necə genişləndirmək olar?

***Azər Allahverənov:** "Bakı-Sumqayıt yolunun genişləndirilməsi üçün, ilk növbədə, Xırdalan dairəsindəki körpü və "Şamaxinka" dairəsindəki tunel genişlənməlidir"*



Qeyd olunan istiqamətdə tıxacın qarşısını almaq üçün Prezident İlham Əliyev Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədova Bakı-Sumqayıt yolunun genişləndirilməsi ilə bağlı göstəriş verdi. Prezident bildirdi ki, çox yaxşı işlər görmüsünüz. Bakı şəhərinin bütün küçələri ən yüksək standartlara cavab verməlidir: "Ona görə harada ki, problemli yerlər var, onların da siyahısını tutun və biz həm bu il, həm də gələn il onları da təmir edəcəyik. Mənə məlumat verilir ki, Bakı-Sumqayıt yolunda tez-tez tıxaclar olur. İndi qatar da işləyir və vətəndaşların bir hissəsi qatardan istifadə edir, yenə də tıxaclar var. Ona görə baxın, bu yolu genişləndirmək üçün texniki imkan olmalıdır, layihə hazırlayın. Biz o yolu genişləndirməliyik, lazımi vəsait ayırarıq".

Bakı-Sumqayıt yolunda yaşanan nəqliyyat sıxlığının aradan qaldırılması üçün qeyd olunan yolun necə və hansı formada genişləndiriləcəyini öyrənmək üçün mütəxəssislərə müraciət etdik.

Nəqliyyat məsələləri üzrə ekspert Azər Allahverənov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Bakı-Sumqayıt yolunun genişləndirilərsə, həmin ərazidə yaşanan nəqliyyat sıxlığının qarşısı alınar: "Yolun genişləndirilməsi üçün, ilk növbədə, Xırdalan dairəsindəki körpü və "Şamaxinka" dairəsindəki tunel genişlənməlidir. Çox güman, Xırdalan dairəsindəki körpünü söküb genişləndirəcəklər. "Şamaxinka" adlanan ərazidəki problemin həlli bir az qəlizdir. "Şamaxinka" deyilən ərazidə ciddi problemlər var. Çünki həmin yolda daralma var".

Həmsöhbətimizin sözlərinə görə, iki-üç mərtəbəli yol qovşaqları salınarsa, həmin istiqamətdə müşahidə olunan nəqliyyat sıxlığını aradan qaldırmaq mümkün olar.

**Ekspert onu da vurğuladı ki, Bakı-Sumqayıt yolunun alternativi bərbad vəziyyətdədir. Birinci alternativ yol açılmalıdır ki, Sumqayıt yolu bağlananda və ya qismən məhdudlaşdırılanda insanların istifadəsi asanlaşsın: "Hərəkəti tam məhdudlaşdırmadan Bakı-Sumqayıt yolunda müəyyən işlər görmək mümkündür".**

***Günel CƏLİLOVA***

# Turistlərin bölgələrimizdə kartla alış-veriş etməsində ciddi problem var

**Son illər ölkəmizə turizm potensialının tam realizə edilməsi məqsədilə həyata keçirilən tədbirlər artıq müsbət nəticəsini büruzə verir. Azərbaycana maraq göstərən turistlərin sayı ildən-ilə artır. Ölkəmizə gələn turistlər paytaxt Bakı ilə yanaşı, bölgələrə də səfər edirlər.**



## *Natiq Cəfərli: "Regionlarda posterminalların normal çalışması üçün texniki qaydalara riayət etmək lazımdır"*

Təbii ki, turist axını büdcəyə daxil olan vəsaitin artmasına səbəb olur. Məlumdur ki, turistlərin əksəriyyəti alış-verişi nağdsız qaydada həyata keçirir.

Rəqəmsal, yəni nağdsız ödənişlər sahəsində ölkəmizdə son illər çox böyük dəyişikliklər müşahidə olunur. Amma təəssüflər olsun ki, bu müsbət dəyişikliklər əsasən Bakı və onun ətrafında baş verir. Regionlar, ucqar ərazilərdə nağdsız ödənişlər sisteminin yayılması prosesi aşağı sürətlə gedir. Turizmin inkişaf etdiyi bir dövrdə nağdsız əməliyyatlar aparmaq üçün zəruri infrastrukturun yaradılmaması xarici turistlərin də narazılığına səbəb olur. Əcnəbi turistlər regionlarda nağdsız ödənişlər üçün yetərli infrastrukturun olmamasından şikayətlənirlər.

Bəllidir ki, tursitlər bank kartları vasitəsilə ödəniş etməkdə maraqlıdırlar. Açıqlanan statistik məlumatlara əsasən, ötən il ölkəmizə gələn xarici vətəndaşlasr bank kartları vasitəsilə 1 milyard 278 milyon manat xərcləyib ki, bu da 2017-ci illə müqayisədə 256 milyon manat və ya 25 faiz çoxdur. Son bir neçə ilin dinamikası göstərir ki, əcnəbilərin plastik kartlar vasitəsilə xərclədiyi vəsaitin həcmi artır və qarşıdakı dövrdə də artımın qalacağı proqnozlaşdırılır.

Ancaq regionlara üz tutan əcnəbilər bank kartları vasitəsilə ödəniş etməkdə çətinlik çəkirlər.

Məlumat üçün bildirək ki, ödəniş sistemlərində müasir texnologiyalardan istifadə edilməsinin əhəmiyyəti "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nda da öz əksini tapıb. Proqramda əsas hədəflərdən biri kimi regionlarda və ucqar ərazilərdə maliyyə inklüzivliyinin (əlçatanlığının) artırılması müəyyənləşdirilib. Proqramda qeyd olunur ki, regionlarda və ucqar ərazilərdə maliyyə inklüzivliyinin artırılması, rəqəmsal ödənişlərin stimullaşdırılması əsas prioritetlərdir: "Ölkənin təkcə iri şəhər və rayonlarında deyil, ən ucqar yerlərində də maliyyə xidmətlərinin həm əhali, həm də biznes qurumları üçün əlçatan olması təmin edilməlidir. Azərbaycanın regionlarında rəqəmsal ödənişlərin genişləndirilməsi üçün böyük potensial var. Bu məqsədlə yeni agent şəbəkələrinin inkişafına imkan yaradılmalıdır".

*"...müəyyən stimullaşdırıcı tədbirlər görülməlidir"*

Ekspertlər hesab edirlər ki, nağdsız ödənişlərdən istifadənin artırılması məqsədilə həm Bakıda, həm də regionlarda stimullaşdırıcı və qadağanedici tədbirlərin görülməsi vacibdir. Xüsusilə regionlarda bu cür tədbirlərin görülməsi rəqəmsal texnologiyalardan istifadə sviyyəsini artıra bilər. Bununla bərabər, rəqəmsal infrastrukturun mühüm hissəsini təşkil edən bankomatların, posterminalların quraşdırılması genişləndirilməlidir. Bu məsələdə banklara və xidmət, ticarət sektoruna müəyyən dəstəyin göstərilməsi, istehlakçılar üçün isə stumullaşdırıcı imkanların yaradılması vacibdir.

Məsələ ilə bağlı fikir bildirən iqtisadçı-ekspert Natiq Cəfərli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, nağdsız ödənişlərin ölkə üzrə yayılmasında aidiyyəti qurumlar maraqlı olmalıdırlar. Regionlarda posterminalların normal çalışması üçün texniki qaydalara riayət etmək lazımdır: "Posterminalların normal vəziyyətdə çalışması üçün internetə çıxış imkanları, banklararası müqavilələrin regionlarda işlək olmasına xüsusi nəzarət etmək lazımdır. Bununla yanaşı, regionlarda sahibkarlıq fəaliyyəti ilə məşğul olan iş adamları nağd ödənişlərin olmasında maraqlıdırlar. Təbii ki, onların məqsədi vergidən yayınmaqla daha çox gəlir əldə etməkdir. Posterminalların quraşdırılmamasına tək xarici turistlər deyil, yerli vətəndaşlar da narazılıq etməlidirlər. Vətəndaşlarımızın kart vasitəsilə alış-veriş etməsi üçün əhali arasında təşviqedici addımlar atılmalıdır. Bank kartları ilə əməliyyatların aparılmasının sayını artırmaq üçün müəyyən stimullaşdırıcı tədbirlər görülməlidir".

**Həmsöhbətimiz onu da vurğuladı ki, bölgələrdə posterminalların sayının az olması turistlərin haqlı narazılığına səbəb olur. Məlumdur ki, turistlər kart vasitəsilə alış-verişə üstünlük verirlər. Bu problemin həll olunması üçün aidiyyəti qurumlar müəyyən işlər görməlidirlər.**

***Günel CƏLİLOVA***

# Kənd təsərrüfatımızda ən vacib ixtisas kadrlarının çatışmazlıq problemi...

**Bu gün Azərbaycan iqtisadiyyatının mühüm bir sahəsi olan kənd təsərrüfatında mövcud problemlərdən biri də peşəkar, ixtisaslaşmış kadrların çatışmazlığıdır. Ümumiyyətlə, hər bir sahənin inkişafının əsas şərtlərindən biri bu sahəni bilən peşəkar şəxslərin olmasıdır. İxtisaslaşmış kadr olmadıqda yaranan problemlər kökündən həllini tapa bilmədiyindən, uzanır və bu, müvafiq sahədə həm vaxt, həm vəsait itkisinə səbəb olur.**



## *Qadir Bayramlı: "Gənclərin aqrar sahəyə marağını artırmaq üçün kənd təsərrüfatı üzrə ixtisaslaşmış TV kanal açılmalıdır"*

Bu gün kənd təsərrüfatında da məhz bu hallar müşahidə olunmaqdadır.

Aqrar sektorda kadr çatışmazlığı problemini Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin (AXA) sədr müavini Yaqub Cəfərov da etiraf edib. O, media nümayəndələrinə açıqlamasında bildirib ki, aqrar sahə kadr çatışmazlığından əziyyət çəkir: "Bu, bütün ölkədə problemdir. SSRİ dağıldıqdan sonra kənd təsərrüfatı üzrə ixtisaslara yiyələnmək istəyən gənclərin sayı azalıb. Gənclər aqronom, baytar, mexanizator, aqrar iqtisadçı kimi ixtisaslara daha az üz tuturlar. Hazırda kimyaçıları, bioloqları aqrar sahəyə cəlb edirik. Onların təkrar hazırlığı ilə məşğul olaraq, özümüz üçün lazımi kadrlar hazırlayırıq".

Aqrar sahədə kadr çatışmazlığı probleminin necə həll olunmasını öyrənmək üçün mütəxəssislərə müraciət etdik.

Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti Qadir Bayramlı "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, aqrar sektorda kadr çatışmazlığı problemi yaşanır: "Sovet dövründə çoxsaylı kənd təsərrüfatı texnikumunu bitirdikdən sonra gənclər dövlət tərəfindən işlə təmin edilirdilər. İndi isə belə stimul yoxdur. Səbəb isə böyük təsərrüfatların olmamasıdır. Kənd təsərrüfatı müəssisələrinin çatışmazlığı, təcrübə sahələrinin qıtlığı aqrar təhsilə marağı da azaldır. Kənd təsərrüfatı ixtisaslarını seçən bakalavrlara əlavə təqaüdlərin ayrılması aqrar sahədə təhsilə təşviq üçün müsbət addımdır.

1990-cı illərdən etibarən aqrar sahədə tənəzzül yaşandı. Belə olan halda, bu sahə ilə məşğul olan mütəxəssislər başqa sektorda çalışmağa başladılar. Sonrakı dövrdə isə aqrar sahə ilə məşğul olanların belə bir təəssüratı var idi ki, onların bu sahə üzrə yetərincə məlumatı var, həmin bilgiləri gələcək nəsillərə ötürə bilərlər. Ancaq sonradan məlum oldu ki, kənd təsərrüfatı sahəsi üzrə məşğul olmaq üçün müasir standartlara cavab verən kadrlara ehtiyac var. Aqrar mütəxəssislərin rəyi olmadan yüksək məhsuldarlıq əldə etmək mümkün deyil. Bu səbəbdən də bölgələrin bir çoxunda çalışan işçilər gübrə və digər preparatlardan hansı normada verilməsini bilmirlər.

*"Aqrar sahə üzrə kadrların azalması səbəblərindən biri də insanların bu sahəyə marağının olmamasıdır"*

Onu da bildirim ki, aqrar sahə üzrə kadrların azalması səbəblərindən biri də insanların bu sahəyə marağının olmamasıdır. Bəzi şəxslər kənd təsərrüfatının gəlirli sahə olmadığını düşündüyündən, aqrar ixtisaslara üz tutanların sayı azaldı. Bu problemin həll olunması üçün aqrar ixtisasa qəbul olunan tələbələrə yüksək təqaüd də təyin olundu".

Həmsöhbətimiz onu da vurğuladı ki, hazırkı şəraitdə savadlı kadrlara böyük ehtiyac var. Bu sahə üzrə təhsil alan tələbələr müasir kənd təsərrüfatında olan məlumatlara malik olmalıdırlar.

**Ekspert hesab edir ki, gənclərin aqrar sahəyə marağını artırmaq üçün kənd təsərrüfatı üzrə ixtisaslaşmış TV kanal açılmalıdır. Həmin kanalda aqrar mütəxəssislərin çıxışları ilə gənclərin kənd təsərrüfatına münasibətini dəyişmək olar. Önəmli olan aqrar sahədə yetişən mütəxəssislərin işlə təmin olunmasıdır. Bu kimi məsələlər həll olunarsa, gənclərin aqrar sahəyə marağı artar.**

***Günel CƏLİLOVA***

# Dünya Səhiyyə Təşkilatı siqaret və spirtli içkilər barədə Azərbaycana yeni tövsiyələr verdi...

**"Azərbaycanda siqaret, spirtli içkilər üçün vergi yükü artırılmalı, onların reklamı qadağan edilməlidir". Bunu Ümumdünya Səhiyyə Təşkilatının ilkin səhiyyə xidmətləri üzrə eksperti Sampreeti Aypanciquli "İlkin səhiyyə xidmətləri və qeyri-yoluxucu xəstəliklərlə mübarizəfə potensialın artırılması" mövzusunda seminarda deyib.**



## *Natiq Cəfərli: "Əksər xarici ölkədə spirtli içki və tütün məmulatlarının satış qiymətini qaldırmaq üçün onlara tətbiq edilən vergi yükü artırılır"*

O qeyd edib ki, Azərbaycanda spirtli içkilərdən istifadə halları Rusiyada olduğu qədər çox deyil. Amma buna baxmayaraq, ölkədə spirtli içkilər üçün vergi yükü artırılmalı, onların reklamı qadağan edilməlidir: "Azərbaycanda ölümə səbəb olan xəstəliklər sırasında ürək-damar xəstəlikləri ilk yerdə dayanır. Bu xəstəliklərin yaranmasının əsas risq faktorlarından biri tütündür. Azərbaycanda tütün istehlakı azaldılmalıdır. Tütünlə bağlı vergilər artırılmalı, siqaret qutularının üzərində "Sağlamlığa ziyandır" sözləri böyük hərflərlə yazılmalı, onun sağlamlıq üçün təhlükəli olmasını göstərən şəkil vurulmalıdır. Bununla yanaşı, Azərbaycanda siqaret reklamı və ictimai yerlərdə siqaret çəkmək qadağan edilməlidir. Azərbaycanda birinci dəfə oluram. Mən küçədə insanların yol gedə-gedə və ya dayanaraq siqaret çəkdiyini görürəm. Ola bilsin ki, bu, Azərbaycan üçün məqbul haldır. Amma mən tezliklə vəziyyətin dəyişəcəyinə ümid edirəm".

Ekspertlər də siqaret və spirtli içkilər üçün vergi yükünün artırılmasının tərəfdarıdırlar.

İqtisadçı-ekspert Natiq Cəfərli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, əksər xarici ölkələrdə spirtli içki və tütün məmulatlarının satış qiymətini qaldırmaq üçün onlara tətbiq edilən vergi yükü artırılır: "Ölkəmizdə də siqaret və spirtli içkilərin qiyməti qaldırılmazdan öncə qonşu ölkələrdə adıçəkilən məhsulların qiyməti öyrənilməlidir. Spirtli içkilər və tütün məmulatlarının qiymətində kəskin artım olsa, bu, qaçaqmalçılığın da artmasına səbəb olacaq. Adətən belə addım atılmamışdan öncə qonşu ölkələrin qiymət siyasəti dərindən öyrənilir. Qonşu ölkələrlə müqayisədə qiymət fərqi çox ciddi olacaqsa, qaçaqmalçılığın da həcmi artacaq. Bu da nəticədə aksizlərin artırılması ilə büdcəyə əlavə vəsaitin daxil olması hədəfinin baş tutmamasına səbəb ola bilər. Çünki leqal satış həcmləri azaldıqca, aksizlərin artırılmasına baxmayaraq, büdcəyə daxil olan vəsaitin azalması ola bilər. Yəni qonşu ölkələrlə müqayisədə çox kəskin qiymət fərqi olsa, bunun əks-effekt verəcəyini düşünürəm. Bu həssas məqama diqqət etmək lazımdır.

*"Adətən belə addım atılmamışdan öncə qonşu ölkələrin qiymət siyasəti dərindən öyrənilir"*

Digər bir məsələ ondan ibarətdir ki, əsasən spirtli içkilərin qiyməti baha olduqca, kustar üsulla, antisanitariya şəraitində hazırlanan, hətta sağlamlığa zərər vura biləcək qeyri-leqal spirtli içkilərin istehsalı da artır və dünyanın bir çox ölkəsində bunun şahidi olmuşuq.

**Bu məsələyə də diqqət etmək lazımdır ki, qiymətlər çox kəskin artsa, kustar üsulla hazırlanan və sağlamlığa zərər vuran məhsulların da bazara çıxması ehtimalı arta bilər. Bu iki məsələni nəzarətdə saxlamaqla tütün məmulatları və spirtli içkilər üçün vergilərin qaldırılması mümkün olar. Qonşu ölkələrdə siqaret və spirtli içkilərin satış qiymətinin monitorinqini aparmaqla, daxildə qiymətlərə nəzarət etməklə vergi yükünü artırmaq olar".**

*Günel CƏLİLOVA*

# QNET haqqında həqiqət: - QNET nədir?

**QNET e-ticarət platforması vasitəsilə sağlamlıq, yüksək səviyyəli həyat tərzi və təhsil kimi sahələrdə geniş çeşidli məhsullar təklif edən birbaşa satış şirkətidir. QNET-in məhsulları insanlara daha sağlam həyat sürmələrinə kömək etmək və onların həyat tərzini yaxşılaşdırmaq üçün nəzərdə tutulmuşdur.**




QNET-in Baş Qərargahı Honk-Konqda yerləşir və dünyada müştəri və distribüterlərin daim artan bazasına dəstək verən 25-dən çox ölkədə ofis və agentlikləri vardır. Keyfiyyətli məhsullarla təmin etməklə yanaşı, QNET-in müştəriləri də məhsullarını və xidmətlərini başqalarına çatdırmaqla, QNET tərəfindən təklif olunan birbaşa satış biznesindən istifadə edə bilərlər. 100-dən çox ölkədə milyonlarla məmnun müştərilər distribüter olaraq QNET-in məhsullarının satışına görə komissiyalar qazanırlar.

**Birbaşa satış nədir?**

Birbaşa satış istehlakçılara evlərində və ya daimi pərakəndə satış yerlərindən kənarda hər hansı bir yerdə mal və xidmətlərin pərakəndə satış üsuludur. Satışların bu cür növləri əksərən ağız-keçi istinadları ilə həyata keçirilir. Birbaşa satış şirkətləri vasitəsilə satılan məhsullar unikal xüsusiyyətlərə malikdir və şirkətə aiddir və satış mərkəzlərində və ya mağazalarda mövcud deyildir.

Birbaşa satış sənayesi 150 ildən çoxdur ki, münasibətlərə əsaslanan marketinq əsasında inkişaf edir. Dünyanın hər yerində təxminən 100 milyon insan bu sənayedə həm qismən, həm də tam zamanlı olaraq fəaliyyət göstərir.

**QNET investisiya sxemidirmi?**

QNET bir investisiya sxemi deyil. Əslində, heç bir sxem tipi də deyil. Bir halda ki, yalnız məhsulları satın almaq üçün pul ödəyirsinizsə, bu qanuni birbaşa satış biznesidir. QNET məhsullarının distribüteri olmaq istəyirsinizsə, www.qnet.net saytında e-ticarət portalımız vasitəsilə müstəqil nümayəndə (İR) olaraq qeydiyyatdan keçə bilərsiniz.

**QNET ilə necə pul qazana bilərəm?**

QNET ilə gəlir əldə etmək üçün yeganə yol məhsul satışından ibarətdir. Məhsullarımızdan istifadə edib onlardan zövq aldığınızdan sonar onları satın almaq üçün başqalarına təklif etsəniz, faktiki satış üzrə komissiyalar əldə edə bilərsiniz. QNET e-ticarət portalımız vasitəsilə yaradılan satış həcminə əsasən, sizə ödənilməli olan komissiyaları hesablayan kompensasiya planını istifadə edir.

Bir çox təşəbbüskar insanlar böyük satış qrupları qurmaq və uğurlu bir iş yaratmaq üçün iş modelimizdən faydalanıblar.

**Pul qazanmaq üçün digər insanları cəlb etməliyəm?**

Bu işdə insanları cəlb etməklə pul qazanmaq mümkün deyil. Yalnız piramida sxemləri insanları cəlb etməyə yönəldilir. Belə sxemlər davamlı deyil və qaçılmaz şəkildə dağılacaqdır. QNET-in işi istənilən şəxsin yalnız cəlb olunması vasitəsilə pul qazanmasına imkan verməyən davamlı satış modelinə əsaslanır. Ona görə də 20 ildən sonra belə biz beynəlxalq səviyyədə böyümək və genişlənməyə davam edirik.

**QNET ilə nə qədər tez gəlir əldə etməyə başlaya bilərəm?**

Birbaşa satış işi digər bizneslər kimi bir biznesdir. Tez bir zamanda varlanmaq sxemi deyil. Bu işdə uğur qazanmaq üçün çox çalışmalı, səbrlə çalışmalı və hədəfə yönəlmiş olmağınız lazımdır. Bu iş sizə sahibkar olmaq imkanını verir. Fərq ondadır ki, ənənəvi biznesdə olduğu kimi, böyük məbləğdə xərcləri və əməliyyat xərcləri barədə narahat olmağınıza ehtiyac yoxdur. Sizin müvəffəqiyyətiniz tamamilə sizə və qoyduğunuz zəhmətə bağlıdır.

**QNET haqqında daha nəyi bilməliyəm?**

* QNET 1998-ci ildən fəaliyyət göstərir. Son 20 il ərzində milyonlarla insana məhsul və xidmətlərdən istifadə edərək daha yaxşı həyat yaşamaq və iş imkanlarımız sayəsində sahibkar olmaq imkanını vermişik.

* QNET həmçinin "Mançester Siti" Futbol Klubunun və 2018 və 2019 üçün CAF Çempionlar Liqası və CAF Konfederasiyalar Kubokunun rəsmi birbaşa satış tərəfdaşıdır.

* QNET-də biz fəaliyyət göstərdiyimiz ölkələrdə icmalara qayğı göstəririk. Dünyada bir sıra xeyriyyə proqramlarında fəal iştirak edirik.

# İncəsənət Universitetinin ixtisaslı aktyor kadrlarının səviyyəsinə ciddi iradlar var...

**Müasir Azərbaycan teatrlarında ixtisaslı kadr məsələsi aktual bir problem kimi diqqəti cəlb edir. Xüsusən də teatrın spesifik sahələri var ki, həmin sahələr üzrə ixtisaslı kadrlar, aktyor və aktrisalar yetişdirilmir. Bu gün teatrlarımız ciddi ixtisaslı aktyor problemi ilə üzləşiblər.**



## *Xəyalə Rais: "Bu gün bölgə teatrlarımız ixtisaslı aktyor sarıdan çox qıtlıq çəkirlər"*

## *Vidadi Qafarov: "Çox yaxşı olar ki, ADMİU spesifik teatr sahələri üçün xüsusi kurslar açsın"*

Bu gün Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində bir sıra sahələr var ki, həmin sahələr üzə aktyorlar hazırlanmır, bu ali məktəbin məzunları həmin sahəni teatrlara işə cəlb edildikdən sonra mənimsəyirlər. Hazırda bu ali məktəbdə kukla və pantomim teatrı aktyorluğu kimi fakültə yoxdur. Bu da sözügedən teatrların ixtisaslı aktyır çatışmazlığından əziyyət çəkməsinə səbəb olur.

Məlumat üçün bildirək ki, Azərbaycanda 1 pantomim teatrı və bir neçə kukla teatrı fəaliyyət göstərir. Abdulla Şaiq adına Kukla Teatrı Bakıda fəaliyyət göstərsə də, o biri kukla teatrları bölgələrdədir. Naxçıvan, Salyan, Qax kukla teatrlarında kadr çatışmazlığı illərdir gündəmdədir. Digər spesifik xüsusiyyətə malik olan pantomim teatrında da bu halın mövcudluğu sirr deyil. Bu sənət sahəsinə seçim zamanı aktyorun plastikasına, pantomim səhnə hərəkətinə, kuklalarla işləmə qabiliyyətinə xüsusi fikir verilir.

Azərbaycan Dövlət Pantomim Teatrının yaradıcısı və baş rejissoru, Xalq artisti Bəxtiyar Xanızadə bizimlə söhbətində bildirdi ki, səhnə hərəkəti kafedrasında pantomim mütləq fənn kimi 1-ci kursdan 3-cü kursa qədər tədris olunmalıdır. O hesab edir ki, bu, Mədəniyyət və İncəsənət Universitetində pantomim teatrı üçün kadr yetişdirilməsi üçün bu ixtisas fakültativ məşğələ kimi də keçirilə bilər, təki burada kadr yetişdirilsin.

Tanımış teatrşünas Xəyalə Rəis isə qeyd etdi ki, bu günün gənc aktyorları daha çox görüntüyə, qısa zamanda məşhurluğa meyl edirlər: "Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti hər il kifayət qədər aktyor yetişdirir. Yeganə aktyor və rejissor yetişdirən ali təhsil ocağımızda hər il teatrlarımızı təmin edəcək qədər qəbul aparılır. Hesab edirəm ki, paytaxt teatrlarımızın o qədər aktyor qəbul etmək üçün kifayət qədər ştatı yoxdur. Bu gün universiteti bitirən gənc aktyorlarımız, rejissorlarımız bölgə teatrlarına getməkdən, orada çalışmaqdan imtina edirlər. Çox nadir hallarda ADMİU-nu bitirən gənc aktyorlar doğulduğu torpaqlara geri qayıdıb orada fəaliyyət göstərən teatrlarda çalışırlar. Bu gün bölgə teatrlarımız aktyor sarıdan çox qıtlıq çəkirlər. Bölgə teatrlarımızda cəmi 4-5 nəfər ali təhsilli aktyor var. Onlar öz aktyor bazasını teatrın daxilində fəaliyyət göstərən studuyalarda yetişdirirlər. Bunlar da özfəaliyyətdən o tərəfə çıxa bilmirlər. Məhz bu səbəbdən bölgə teatrlarımızın tamaşaları qənaətbəxş olmur".

X.Rəis əlavə etdi ki, hazırda çox az hallarda gənc aktyorlarımız teatrlara müraciət edirlər: "Çünki televiziyalardan xarici seriallarda bu sənətin gətirdiyi məşhurluğu görüb məhz aktyor olmaq istəyən gənclərimiz var. Hansı ki, onlar məhz məşhur olmaq üçün bu sənətə gəliblər. Teatr isə onlara bu məşhurluğu vermir. Buna görə də universitetdə birinci kursa qəbul olunan tələbələr belə "heç olmasa əlimi bir seriala ilişdirim" prinsipi ilə yanaşırlar. Birinci kursda özlərini xalq artisti, ikinci kursda əməkdar artist kimi aparırlar. Dördüncü kursda anlayırlar ki, onlar heç aktyor belə deyillər. Təəssüf hissilə qeyd edim ki, bugünkü gənclər daha çox görüntüyə qaçırlar. Teatrlarımızın isə aktyor baxımından qıtlıq çəkmsəi məsələsinə razı deyiləm. Bu gün teatrlarda çalışan gənc aktyorlarımız kifayət qədərdir. Teatrlarda çalışan rejissorlar, əsasən də baş rejissorlar oraya universitetdə dərs dedikləri tələbələri gətirir və əsas hazırladıqları tamaşalarında da o tələbələrə rol verirlər. Digər sözünü demiş, peşəkar aktyorlar qalır kənarda, əsas rolu həmin aktyorlar oynayırlar. Bəzən də rejissorların çalışdığı teatrlarda qərəzli münasibət göstərdiyi aktyorlar olduğu üçün deyirlər ki, teatrda aktyor qıtlığı var"

Tanınmış teatrşünas Vidadi Qafarovun fikrincə isə, bəzi spesifik teatlar üçün ixtisaslı aktyor kadrlarının hazırlanması üçün Təhil Nazirliyi və ADMİU birgə işlər görməlidirlər. "Bilirsiniz ki, ixtisaslar var ki, onlar spesifik sahələrlə bağlıdır. kukla teatrı bir teatrdır, pantomim teatrı da bir teatrdır. Əvvəllər belə bir ənənə vardı, spesifik sahələr üzrə bir neçə ildən bir kurs yığırdılar, o tələbələr oxuyub bitirdikdən sonra təyinatı üzrə işlə təmin edilirdilər. Bu gün Azərbaycanda bir neçə kukla teatrı var və həmin teatrların kadrlarla təmin olunması vacibdir. Çox yaxşı olar ki, ADMİU spesifik teatr sahələri üçün xüsusi kurslar açsın və həmin kurslarda ixtisaslı aktyorlar yetişsin. Bu, problemdən çıxış yoludur".

**V.Qafarov qeyd etdi ki, kukla və pantomim teatr sahəsi spesifik bir istiqamətdir, bu sahələr üzrə kadr hazırlığına xüsusi önəm verilməlidir. "Pantomim fərqli bir teatr sahəsidir, bu, mimika və jestlər üzərində qurulan bir teatrdır. Universitetin aktyor sənəti fakültəsində tələbələrə teatrın bütün sahələri öyrədilir. Onlar səssiz də, sözsüz də, him-cimlə də, səslə də oynamağı bacarmalıdırlar. O vaxt Bəxtiyar Xanızadə "Dəli yığıncağı"nı yaratdı, sonra o, Pantomim Teatrı kimi dövlət statusu aldı. Bəxtiyar müəllim Sankt-Peterburqda təhsil almışdı, aspirantura bitirmişdi və bu sahə üzrə kurs keçmişdi. O, oradan yararlanıb gəlib Azərbaycanda bu işləri görmüşdü. Hesab edirəm ki, ayrı-ayrı sahələr üzrə bu ali məktəbdə xüsusi kurslar təşkil edilməlidir" - deyə V.Qafarov bildirdi.**

***İradə SARIYEVA***

№ 195 (4093) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

2-4 NOYABR 2019-cu il

www.baki-xeber.com

## Səliqəsiz və paltarı pis qoxu verən sərnişinləri Kiyev metrosuna buraxmayacaqlar

**Kiyev Şəhər Şurası metropolitendən istifadəyə dair yeni qaydalar paketi hazırlayıb.**

Ukrayna KİV-ləri xəbər verir ki, paltarı çirkli olan və ya pis qoxu verən, qismən çılpaq, eləcə də "səliqəsiz" geyimli sərnişinlərin metroya daxil olması qadağan ediləcək. Qəfəsdə və ya konteynerdə olmayan heyvanları (bələdçi itlərdən başqa), velosipedləri metroda aparmaq, metroda mahnı oxumaq və musiqi alətlərində ifa etmək də yolverilməz olacaq.



## Mülki aviasiya tarixində ən uzunmüddətli fasiləsiz uçuş...

**Avstraliyanın "Qantas" aviaşirkətinin həyata keçirdiyi Nyu-York-Sidney aviareysi mülki aviasiya tarixində ən uzunmüddətli fasiləsiz uçuş olub.**

"Boeing 787-9 "Dreamliner" təyyarəsi ilə yerinə yetirilən uçuş 19 saat 16 dəqiqə davam edib və ekipaj 16 200 kilometr məsafə qət edib. "AZƏRTAC BBC" telekanalının saytına istinadla xəbər verir ki, göyərtəsinə 19 sərnişin, o cümlədən aviaşirkətin baş direktoru Alan Coysun olduğu "Dreamliner" bu uçuşu uzunmüddətli aviareyslərin insan səhhətinə təsiri üzrə tədqiqat çərçivəsində yerinə yetirib. Təyyarədə olan mütəxəssislər uçuş zamanı pilotların beyin fəaliyyətini, göyərtədə işıqlandırmanı müşahidə edib, habelə sərnişinlərin fiziki vəziyyəti, yuxusu və qidalanmasını öyrəniblər. "Qantas" donanmasının meneceri Lisa Norman bildirib ki, bu uçuş sayəsində pilotların yorulması ilə bağlı yaranacaq risklərin idarəolunması, habelə sərnişinlər üçün maksimum rahat şərait yaradılması üzrə qiymətli məlumatlar əldə edilib. Həmin məlumatlar Sidney Universitetinin alimləri tərəfindən tədqiq ediləcək. Məsələn, həmin universitetin Çarlz Perkins Mərkəzinin araşdırmalarına görə, sərnişinlərin 54 faizi yuxuya getmək üçün qaşlaqlıqdan, 38 faizi spirtli içkilərdən, 10 faizi isə yuxu dərmanlarından istifadə edirlər. Bundan başqa, qütblər arasında olan saat fərqinə uyğunlaşmaq da ciddi problem kimi tədqiq olunub. Nyu-Yorkda təyyarəyə minən sərnişinlər saat əqrəblərini Sidney vaxtına dəyişiblər və Avstraliyanın şərq hissəsində qaranlıq düşənədək yuxuya getməyiblər. Bu tədbir uzunmüddətli uçuşun orqanizmə mənfi təsirinin qarşısını almaq üçün görülüb. Eyni zamanda, pilotlara və sərnişinlərə təklif olunan yeməklərin seçimi də diqqət mərkəzində olub: onlara diqqəti cəmləşdirməyə kömək edən ədvalı menyu təqdim edilib. Uçuşun yeddinci saatında sərnişinlərin yatması üçün göyərtədəki işıqlar söndürülüb, onlar geniş kreslolar olan biznes-klass salonuna keçiblər. Ekspertlər bildiriblər ki, heç bir kommersiya reysi bu qədər uzun sürə bilməz. Belə ki, təyyarənin texniki imkanları fasiləsiz uçuş zamanı tam salon sərnişinlərin və baqaj yüklərinin ağırlığını daşımağa qadir deyil. Çünki, belə olan halda yanacaq sərfi artır. Məhz bu səbəbdən "Dreamliner"in göyərtəsində cəmi 49 sərnişin olub, baqaj bölməsi isə tamamilə boş saxlanılıb. Qeyd olunur ki, fasiləsiz uzunmüddətli uçuşlar üçün təyyarə istehsalçılarının yeni laynerlərindən - "Boeing-777" və "Airbus-A350"dən istifadə ediləcək.



## 11 min illik məbəd tapıldı

Mardin vilayətinin Darkeçid rayonunda 11 min 300 il əvvəlinə aid məbəd tapılıb. "Milli.Az" xəbər verir ki, Mardin Muzey Müdirliyi tərəfindən 2012-ci ildə başlanan arxeoloji qazıntı davam edir. Yeni aşkarlanan məbəd neolit dövrünə aid edilir. Orada 4 qəbir daşı yer alır. 80 metr uzunluğundakı məbəd Şabliurfadakı Göbəklitəpə ilə oxşar xüsusiyyətlərə malikdir. Qeyd edək ki, Darkeçid rayonu tarix boyunca Şumer, Akkad, Babil, Xet, Assuriya, Urartu, Roma, Abbasi, Səlcuq və Osmanlı sivilizasiyalarının da yer aldığı ümumilikdə 25 mədəniyyətə ev sahibliyi edib.

## Pişik sahibini yanğından xilas etdi

ABŞ-ın Nyu-York ştatında pişik mənzildə baş verən yanğın zamanı yatan ev sahibini oyandıraraq həyatını xilas edib. "Oxu.az" xəbər verir ki, Daniel Şafer beş il əvvəl küçədən götürüb saxladığı pişiyin yanğın zamanı onun üstünə atılaraq oyatdığını söyləyib. Qadın yuxudan oyanarkən mənzilin tüstü ilə dolduğunu və divarların alov aldığını görüb. Şafer özünü mənzildən çölə ata bilsə də, pişik yoxa çıxıb. Yanğın söndürüldükdən sonra "Kitti" adlı pişik mənzildən boğulmuş halda tapılıb və müalicə üçün baytara aparılıb. Qeyd edək ki, yanğın ümumilikdə doqquz mənzilə zərər verib.







**Qoç** - Ünsiyyətdən qaçırsınız, əsəbisiniz, hətta həmfikirlərinizlə də ortaq nöqtəyə gələ bilmirsiniz. Yox yerdən narazılıqlar yaranır və saatlar keçdikcə böyüyür, ciddiləşir. Şəxsi həyatınızda gözlənilməz dəyişikliklər mümkündür.



**Buğa** - Tamamilə aydındır ki, uzun bir zamanı fantaziya adlanan gözəl bir ölkədə keçirmisiniz. İndi də sanki sizi oradan deportasiya ediblər və real aləmin çatışmazlıqları ilə barışmalısınız.



**Əkizlər** - Uğurlu, yeni imkanlar və qeyri-adi təsadüflərlə dolu gündür. Həyatınız göz önündə dəyişir və dəyişikliklərin mahiyyəti məhz sizdən asılıdır. Yeni kəşflər edə bilərsiniz. Uzaqdan aldığınız xəbərlər xoş olacaq.



**Xərçəng** - Gizlənin, kimsənin gözünə görünməyin. Kim sizi görsə, istər-istəməz bir pislik etmək fikrinə düşəcək. Nə etməli, bu gün də belə gətirib. Pul xərcləmək, iri əşyalar almaq məsləhət deyil.



**Şir** - Mürəkkəb danışıqların aparılması üçün münasib gündür. Özünüzə tərəfdaş kimi görmək istədiyiniz rəqibiniz varsa, bu gün onunla mütləq söhbət etməyə çalışın. Bu gün onu görüşə çağırın.



**Qız** - Uğurlu gündür. Xoş sürprizlər gözləyin. Bəxtinizə inanın: məhz onun sayəsində bir sıra çətin vəziyyətdən asanlıqla çıxa biləcəksiniz. Həmkarlarınızla münasibətləriniz düzəlir, rəhbərliyin və yaxud başqa nüfuzlu bir şəxsin dəstəyini alacaqsınız.



**Tərəzi** - Darıxdırıcı, boz gündür. Şücaət göstərmək, macəralara qoşulmaq, heç olmasa, şəraiti dəyişmək arzusundasınız. Münaqişədən qaçmağa yalnız sizin cazibədarlığınız kömək edir.



**Əqrəb** - Adi günlərdən biridir, elə ən yaxşı cəhəti də sakitliyidir. Bu ərəfədə başladığınız işləri yekunlaşdıra bilərsiniz, kimsə sizi işinizdən ayıraraq diqqətinizi yayındırmayacaq. Bu gün adam arasına çıxmaq, tanışlıqlar qurmaq sizin üçün faydalıdır.



**Oxatan** - Uğur bu gün sizinlədir. Qarşınıza yeni məqsədlər qoyun, onları mütləq əldə edəcəksiniz, heç şübhəniz olmasın. Onlar böyük həvəs və entuziazmla sizin göstərişlərinizi yerinə yetirəcəklər.



**Oğlaq** - İşlər o qədər də rəvan getmir. Xeyli mürəkkəb, birmənalı olmayan situasiyalar yaranır və onlardan çıxış yolunu tapmaq o qədər də asan olmur. Yalnız öz gücünüzə güvənməli olursunuz, bu isə vəziyyəti bir qədər də qəlizləşdirir.



**Dolça** - Uğursuzluq nə qədər çoxalırsa, siz də bir o qədər şansınıza güvənirsiniz. Yalnız öz gücünə güvənən, zəhmət çəkməyə hazır olan Dolçalar yaxşı nailiyyətlər əldə edəcəklər.



**Balıqlar** - Etiraf edin ki, imkanlarınız hüdudsuz deyil. Əgər bunu qəbul etsəniz, bir çox gərəksiz işlərdən, əziyyətlərdən yaxa qurtara bilərsiniz. Əksinə, inad göstərsəniz, həm vaxtınızı, həm də gücünüzü itirəcəksiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Tərk edildiyi üçün keçmiş sevgilisindən doqquz min mesajla qisas aldı



**Avstraliyanın Sidney şəhər sakini Denis Ceyn Li (Denise Jane Lee) ayrıldıqdan sonra keçmiş sevgilisinə doqquz min hədə-qorxu mesajı göndərib.**

"Oxu.az" xəbər verir ki, 40 yaşlı hakim Li 2017-ci ilin fevralında birini təhqir etmək, qorxutmaq, təcavüz etmək və hədələmək ittihamı ilə həbs olunub. Qadın məhkəmədə əməllərinin əksəriyyətini etiraf edib. Qeyd edək ki, cütlük cəmi iki ay birlikdə olub. Bunun ardından M.Holberton adlı keçmiş sevgili ayrılmaq istədiyini bildirib və başqa şəhərə köçüb.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.